27 may 2022 №40 (1913)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## İstiqlal bayramımız – Müstəqillik Günümüz mübarək!

### 23 aylıq Cümhuriyyətin 104 yaşı

Azərbaycanın istiqlal və istiqbal düşüncəli aydınlarının xalqımızın və ümumilikdə müsəlman Şərq dünyasının tarixinə bəxş etdikləri ilk Cümhuriyyətin yaranmasından 104 il ötür.

1918-ci ilin 28 Mayı milli dövlətçilik tariximizin ən şanlı səhifəsidir. Bu günü 104 il əvvəl tariximizə yazan, yox yerdə bir dövlət bina edən işıqlı, vətənsevər, fədakar insanları bir daha minnətdarlıqla yad edirik.

Cümhuriyyətimiz o dövrün regional və beynəlxalq siyasi reallıqları şəraitində cəmi 23 ay ömür sürsə də, tariximizdə silinməz izlər qoydu. 70 illik sovet ideologiyası bu izlərin üstünü örtsə belə...

Cümhuriyyətin qurucusu Məhəmməd Əmin Rəsulzadə onun süqutundan illər sonra nisgilini ifadə edərkən gələcəyə ümidini itirməmişdi. 1918-ci ildə səpilən istiqlal toxumunun bir gün yenə cücərəcəyinə inanırdı...

*Milli fikir toxumları səpildi,*
*İslatdı torpağı axan qızıl qan.*
*Bu əkindən yarınki bir baharda*
*Əlbət bitər bir yeni Azərbaycan.*




"Biz Azərbaycanın 1918-ci ildə yaranmış ilk müstəqil Xalq Cümhuriyyətinin varisiyik. Bu müstəqillik Azərbaycan xalqının istiqlal arzusu ilə yaşayan vətənpərvər insanlarına, 1918-ci ildə Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski, Nəsib bəy Yusifbəyli və bir çox başqalarının yaratdığı Xalq Cümhuriyyətinə bizim tərəfimizdən, bugünkü nəsillər tərəfindən ucaldılmış böyük bir abidədir..." – müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyev Cümhuriyyətin tariximizdəki yerinə qiyməti bu sözlərlə vermişdi.

Cümhuriyyətin varisi olan Azərbaycan Respublikası özünün ən böyük gününü – İstiqlal bayramını ikinci ildir sərhədlərinin bütövlüyünü təmin etmiş, suveren haqlarını, güc və qüdrətini dünyaya nümayiş etdirmiş dövlət olaraq qeyd edir.

"Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını reallığa çevirdik. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər" – Prezident İlham Əliyev bu sözləri Cümhuriyyətin 100 illik yubiley mərasimində bildirmişdi.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi, Ordumuzun rəşadəti, şəhid və qazilərimizin canı-qanı bahasına qazanılan Zəfərdən sonra həmin sözlər daha böyük anlam kəsb edir.

*Azərbaycan! Azərbaycan!*
*Ey qəhrəman övladın şanlı Vətəni!*
*Səndən ötrü can verməyə cümlə hazırız!*
*Səndən ötrü qan tökməyə cümlə qadiriz!*
*Üçrəngli bayrağınla məsud yaşa!*

## Azad torpaqlarda həyat canlanır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva mayın 26-da Füzuli, Cəbrayıl və Zəngilan rayonlarına səfər ediblər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Horadiz-Ağbənd dəmiryolu xəttinin Cəbrayıl rayonu ərazisində Soltanlı stansiyasının təməlqoyma mərasimində iştirak ediblər.

Bildirilib ki, təkxətli dəmiryolunun uzunluğu 110,4 kilometrdir. Layihəyə əsasən yol boyunca 9 stansiyanın (Horadiz, Mərcanlı, Mahmudlu, Soltanlı, Qumlaq, Həkəri, Mincivan, Bartaz, Ağbənd), 3 tunelin, 41 körpünün, 7 yolötürücünün, 300-ə yaxın süni mühəndis qurğusunun, rabitə və işarəvermə sisteminin, elektrik təsərrüfatının tikintisi planlaşdırılır. Yol boyunca 85 kilometr ərazi minalardan təmizlənib və proses davam edir. Dəmiryolu xəttinin yan yollarla birlikdə 60 kilometrlik hissəsi tamamlanıb. Bu məsafədə yük qatarları hərəkət edir. Tikinti işləri Türkiyənin "Kalyon RSY İnşaat Adi Ortaklığı Ticari İşletmesi" şirkəti tərəfindən həyata keçirilir.

*davamı səh. 2-də*

## Ədəbiyyatda və teatrda məktəb yaradan sənətkar

Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının dəstəyi ilə "İlyas Əfəndiyev. Geriyə baxarkən" adlı fotoalbom çapdan çıxıb. Mayın 25-də Milli Kitabxanada nəşrin təqdimat mərasimi keçirildi.

Fotoalbom XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq yazıçısı İlyas Əfəndiyevin (1914-1996) ömür və zəngin yaradıcılıq yolunu əks etdirir.

Tədbiri giriş sözü ilə açan Milli Kitabxananın direktoru, professor Kərim Tahirov nəşr haqqında məlumat verdi. Bildirdi ki, fotoalbomda İlyas Əfəndiyevin ömür yolunun ən yaddaqalan anlarının fotoları, görkəmli mədəniyyət və incəsənət xadimlərinin, ədibin yaxın dostlarının sənətkar haqqında fikirləri, xatirələri, tanınmış şairlərin yazıçıya həsr etdiyi şeirlər, habelə sənətkarın əsərlərinin tamaşalarından fotolar yer alıb: "Biz İlyas Əfəndiyevin "Geriyə baxma, qoca" romanının və ədibin həyat və yaradıcılığına həsr olunmuş "Geriyə baxmağa dəyər" film-oçerkinin (1985, ssenari müəllifi Məmməd İsmayıl – red.) adından ilhamlanaraq fotoalbomu "Geriyə baxarkən" adlandırmışıq".

*davamı səh. 3-də*

## Yerlərdə mədəniyyət müəssisələri necə fəaliyyət göstərir?

### Nazir Anar Kərimov Ağdam rayonunda bir sıra obyektlərə baxış keçirib

Mədəniyyət naziri Anar Kərimov mayın 26-da Ağdam rayonunun Quzanlı qəsəbəsində Ağdam, Ağcabədi və Laçın rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan sonra nazir Ağdam rayonunda bir sıra mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olub.

Anar Kərimov əvvəlcə Əbdürrəhim bəy Haqverdiyev adına Ağdam Dövlət Dram Teatrının fəaliyyəti ilə tanış olub, sonra Ağdam rayon Mədəniyyət Mərkəzinə baxış keçirib. Qeyd edilib ki, Mədəniyyət Mərkəzi 1952-ci ildə Ağdam şəhərində yaradılıb. 1993-cü ildə rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduqdan sonra Dövlət Dram Teatrının binasında fəaliyyətini davam etdirir.



Quzanlı qəsəbəsində Ağdam Dövlət Rəsm Qalereyasına baxış keçirən Anar Kərimov sonra rayon Mərkəzi Kitabxanasına baş çəkib. Burada kitabxananın fəaliyyəti, kitab fondu barədə nazirə ətraflı məlumat verilib.

Səfər çərçivəsində Ağdam rayon Şəmsi Bayramov adına Xındırıstan kənd Uşaq musiqi məktəbinə baxış keçirilib. Bildirilib ki, 1969-cu ildən Ağdam rayon 1 nömrəli Uşaq musiqi məktəbinin filialı, 1982-ci ildən isə müstəqil fəaliyyət göstərən təhsil ocağı üçün 2016-cı ildə ikimərtəbəli yeni bina tikilib. 31 sinif otağı, 110 nəfərlik zal, 6 texniki otağı olan məktəbdə 160 şagird təhsil alır, 57 müəllim çalışır.

*davamı səh. 2-də*

## Fuad Əbdürrəhmanovun "Monumental həyat"ı

Görkəmli heykəltəraş, Xalq rəssamı Fuad Əbdürrəhmanova (1915-1971) həsr olunmuş "Monumental həyat" adlı sənədli film çəkilib. Mayın 25-də Nizami Kino Mərkəzində filmin təqdimatı keçirildi.




Mərasimdə mədəniyyət naziri Anar Kərimov, Milli Məclisin deputatları, tanınmış mədəniyyət və incəsənət xadimləri, digər qonaqlar iştirak edirdi. Tədbir iştirakçıları öncə mərkəzin foyesində heykəltəraşa həsr olunmuş sərgiyə baxdılar.

Filmin prodüseri Nicat Məmmədov jurnalistlərə açıqlamasında bildirdi ki, ekran işinin çəkilişləri Mədəniyyət Nazirliyi, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının təşkilatçılığı və "Havissos" MMC-nin dəstəyi ilə aparılıb. Çəkilişlər Bakı, Gəncə, Şəki, Sankt-Peterburq, Moskva, Düşənbə və Brüsseldə gerçəkləşib. Filmdə Azərbaycan Dövlət Arxiv İdarəsi, Azərbaycan Televiziyası və Dövlət Film Fondunun arxiv materiallarından, həmçinin sənətkarın şəhərdəki heykəllərinin dron çəkilişlərindən istifadə olunub.

*davamı səh. 2-də*

## Şuşanın 90 yaşlı sənət ocağı

Mədəniyyət Nazirliyinin müvafiq əmrinə əsasən, Sumqayıt Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə respublikamızın qocaman bədii təhsil ocaqlarından olan Şuşa şəhər Niyazi adına Uşaq incəsənət məktəbinin 90 illik yubileyi qeyd olunub.

Mayın 25-də Beynəlxalq Muğam Mərkəzində məktəbin 90 illik yubileyinə həsr olunan "Əziz Şuşa, sən azadsan!" adlı tədbir keçirilib.



Mərkəzin foyesində "Şuşa İli"nə həsr edilmiş rəsm sərgisi nümayiş olunub, məktəbin "Qaytağı" ritm və "Təbəssüm" rəqs qrupları ifaları ilə gələn qonaqları salamlayıblar.

Tədbirin rəsmi hissəsi şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla anılması ilə başlayıb. Məktəbin 90 ildə keçdiyi yola, qazandığı uğurlara nəzər salan videoçarx nümayiş olunub.

*davamı səh. 2-də*

## I Bakı Beynəlxalq Piano Festivalı başa çatır

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə mayın 20-də başlayan I Bakı Beynəlxalq Piano Festivalı çərçivəsində ötən günlərdə sənətsevərlərə bir-birindən maraqlı konsert proqramları təqdim edilib.




Festivalın dördüncü günü YARAT Müasir İncəsənət Məkanının səhnəsində Kəmalə Əlizadə və onun italyan həyat yoldaşı, gitaraçı Stefano Muskaritolo da tamaşaçılara xoş anlar bəxş etdilər.

Bəstəkar və pianoçu Kəmalə Əlizadə Azərbaycan musiqiçiləri ilə İtaliya, Yunanıstan, İspaniya, Portuqaliya, İsrail rəssamları arasında həyata keçirilən layihələrdə, müxtəlif festivallarda bədii rəhbər olub.

Mayın 23-də "Landmark"da daha bir konsert almaniyalı musiqiçi Vadim Abramovun iştirakı ilə gerçəkləşdi. Pianoçunun virtuoz ifası tamaşaçıların marağını cəlb etdi.

Festivalın digər yaddaqalan tədbiri həmin gün yenə "Landmark"da baş tutdu. Tərlan Növrəslinin "Qarabağıma gəl" adlı kitabının təqdimat mərasimi keçirildi. Pianoçu, musiqişünas, Əməkdar artist Nərgiz Əliyevanın lirik musiqisinin müşayiəti ilə təşkil edilən tədbirdə yazıçının yaradıcılıq yolundan, özünəməxsus üslubundan danışıldı. Qeyd olundu ki, Tərlan Növrəsli romantik-fəlsəfi poemalar, romanlar, habelə elmi məqalə, dərslik və tədris-metodik vəsaitlərin müəllifidir.

*davamı səh. 8-də*

### Dövlət Uşaq Filarmoniyası 30 illiyini qeyd etdi




*səh. 2*

### Türkiyə ilə mədəniyyət sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub

*səh. 3*



### "Mədəni gənclik" Akademik Musiqili Teatrda olub

*səh. 5*

# Azad torpaqlarda həyat canlanır

## Prezident və birinci xanım Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında olublar



əvvəli səh. 1-də

Prezident İlham Əliyev Soltanlı stansiyasının təməlini qoyub. Məlumat verilib ki, stansiyada sərnişinlər üçün gözləmə zalı, rabitə, işarəvermə və digər xidməti otaqlar yaradılacaq.

Qeyd edək ki, Horadiz-Ağbənd dəmiryolu xəttinin təməli 2021-ci il fevralın 14-də Prezident İlham Əliyev tərəfindən qoyulub. Layihənin 2023-cü ilin sonunadək yekunlaşdırılması nəzərdə tutulur.

Dövlətimizin başçısı və birinci xanım Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) tikintisi ilə də tanış olublar.

Məlumat verilib ki, ötən ilin oktyabrında Azərbaycan və Türkiyə prezidentləri tərəfindən təməli qoyulan və ümumi uzunluğu 123,6 kilometr olan bu yolun tikintisi sürətlə davam etdirilir. Başlanğıcını Füzuli rayonunun Əhmədbəyli kəndindən götürən yol birinci texniki dərəcəyə uyğun inşa edilir. Yolun ilk 77 kilometrlik hissəsi altı, qalan 46,6 kilometrlik hissəsi isə dörd hərəkət zolaqlı olacaq. Yol boyunca üç avtomobil tuneli inşa edilir. Tunellərdən birində qazma işləri artıq yekunlaşıb, hazırda beton işləri icra olunur. Digər iki tuneldə qazma işləri davam etdirilir. Yolun üzərində 15 avtomobil körpüsü, 5 yolötürücü və 54 yeraltı keçidin inşası nəzərdə tutulub.

Hazırda 14 körpü, 3 yolötürücü və 38 yeraltı keçidin tikintisi aparılır. Yolun ilk 110 kilometrlik hissəsində torpaq işləri icra edilir. Tikinti işlərinin 2024-cü ildə başa çatdırılması nəzərdə tutulur.

Yol Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistralının bir hissəsi olmaqla, Zəngilanı Azərbaycanın digər rayonları və Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək.




Mayın 26-da dövlət başçısı və birinci xanımın iştirakı ilə "Azərenerji" ASC-nin 330/110 kV-luq "Cəbrayıl" enerji qovşağının təməlqoyma mərasimi keçirilib.

Sonra Zəngilan rayonuna gələn Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olublar.

Bildirilib ki, perronda torpaq işləri tamamlanıb, uçuş-enmə zolağında asfalt-beton işləri davam edir. Zolağın uzunluğu 3000 metr, eni isə 60 metr olacaq. Hava limanı bütün növ təyyarələri, o cümlədən ağır yük təyyarələrini qəbul edəcək.

Aeroportun hava hərəkəti qülləsinin tikintisinin iyulda tamamlanması planlaşdırılır. Avqustun sonunda isə terminal binasında işlərin başa çatdırılması nəzərdə tutulur.

Dövlət başçısı və birinci xanım "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunan Zəngilan məscidinin tikinti işləri ilə tanış olub, Zəngilan İşğal və Zəfər muzeyləri kompleksinin təməlqoyma mərasimində iştirak ediblər. Məlumat verilib ki, kompleks İşğal muzeyi, Zəfər muzeyi və dağıntıları əks etdirən Memorial parkdan ibarət olacaq.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Zəngilan şəhərinin Baş planı təqdim olunub.

# Dövlət Uşaq Filarmoniyası 30 illiyini qeyd etdi

Uşaq və yeniyetmələrin incəsənətin müxtəlif istiqamətləri üzrə püxtələşməsində xüsusi yeri olan yaradıcı təşkilatlardan biri də Azərbaycan Dövlət Uşaq Filarmoniyasıdır. Mayın 25-də müəssisənin 30 illik yubileyi münasibətilə təntənəli mərasim keçirildi.

Mədəniyyət və incəsənət xadimləri, yaradıcı təşkilatların təmsilçilərinin iştirak etdiyi tədbirdə çıxış edən filarmoniyanın direktoru, Əməkdar incəsənət xadimi Dilarə Əliyeva onları təbrikə gələn hər kəsə təşəkkürünü bildirdi.

Vurğuladı ki, yaranıb formalaşma tarixi müstəqillik dövrümüzlə üst-üstə düşən filarmoniya bu müddətdə zəngin və çoxşaxəli inkişaf yolu keçib, onun yetirmələrinin sorağı ölkəmizlə yanaşı dünyanın müxtəlif səhnələrindən gəlir. Direktor dedi ki, professional səhnə üçün kadrların, incəsənətin müxtəlif istiqamətlərində istedadların seçilib yetişdirilməsində baza rolunu oynayan filarmoniya bundan sonra da öz missiyasını layiqincə yerinə yetirəcək.

Yubileylərinin "Şuşa İli"nə təsadüf etməsinin sevinclərini daha da artırdığını deyən D.Əliyeva Vətən övladlarının sənətə sevgi ruhunda tərbiyələnməsində, az da olsa, xidmətlərinin olmasını qürurverici məqam kimi xüsusi vurğuladı.

Kollektivi təbrik edən mədəniyyət naziri Anar Kərimov filarmoniyanın 30 il ərzində Azərbaycan musiqi, rəqs, ifaçılıq sənəti sahələrinə istedadlı və bacarıqlı simalar bəxş etdiyini və bunun sayəsində səhnəmizin daha da gözəlləşdiyini bildirdi.

Mədəniyyətin dövlət və cəmiyyət üçün vacib, strateji sahə olduğunu deyən nazir Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahəni daim diqqətdə saxladıqlarını bildirdi. Vurğuladı ki, dəyərlər sisteminin formalaşması, yeni nəsillərin sənətə, mədəni irsimizə sevgi ilə yanaşması, bu sahədə varisliyin davamlı olması, istedadlı və peşəkar kadrların bir-birini uğurla əvəzləməsi üçün mədəniyyətin, incəsənətin bütün istiqamətlərinə diqqət vacibdir.

Mədəniyyətə, bu sahədə çalışan insanlara diqqət və qayğının dövlət siyasətinin tərkibində durduğunu bildirən Anar Kərimov ulu öndər Heydər Əliyevin bu məsələyə daim həssas yanaşdığını və mütərəqqi ənənənin dövlət başçısı tərəfindən layiqincə davam etdirildiyini söylədi.

Qeyd olundu ki, ölkəmizdə uşaq və yeniyetmələri, müxtəlif sənət sahələrinə meyilli insanları bir araya gətirərək bu sahədə daha da təkmilləşdirən qurumlar sırasında Dövlət Uşaq Filarmoniyasının xüsusi yeri var: "İstedadlı və təhsilli yeni nəsil gələcəyin uğurlu davamçılarıdır. Bu mənada onların mədəniyyətə, sənətə, mənəvi dəyərlərimizə sevgi ruhunda yetişmələrinə birlikdə diqqət yetirməli, dəstəkləməliyik".

Anar Kərimov filarmoniyanın kollektivinə bu məsuliyyətli işdə uğurlar arzuladı. Filarmoniyanın təmsilçilərindən Cahangir Zülfüqarov, Nigar Zeynalova, Qönçə Mehdiyeva, Leyla Muradzadə, Leyla Aslanova, Elmira Hümbətova, Aysel Mehdizadə və Məlahət Məmmədovaya nazirliyin fəxri fərmanlar təqdim edildi.



Sonra filarmoniyanın nəzdindəki kollektivlərin rəngarəng konsert proqramı təqdim olundu. "Şəms" uşaq xoru, vokal sinfi, "Musiqili uşaq teatrı", müxtəlif yaş qruplarından ibarət rəqs kollektivləri, "Sədəf" xalq çalğı alətləri ansamblı və solistlər maraqlı repertuarları ilə qonaqlara xoş anlar yaşatdılar.

Qeyd edək ki, Dövlət Uşaq Filarmoniyası yetişməkdə olan nəslin bədii-estetik inkişafı, uşaqların Azərbaycanın mədəniyyətinə, xalq rəqslərinə, mahnılarına sevgi ruhunda böyüməsi, onların arasından istedadların üzə çıxarılması istiqamətində sistemli iş aparır.

**Həmidə**

# Yerlərdə mədəniyyət müəssisələri necə fəaliyyət göstərir?



əvvəli səh. 1-də

Ağdam Tarix-Diyarşünaslıq Muzeyinə gələn nazirə məlumat verilib ki, 1962-ci ildə yaradılan və 2500-dən artıq eksponatın sərgiləndiyi muzey Ağdam şəhəri işğal olunan zaman düşmən tərəfindən məhv edilib. 2001-ci ildən muzey öz fəaliyyətini Qaradağlı kənd Mədəniyyət evinin binasında davam etdirir. Hazırda muzeydə 1300-dən çox eksponat qorunur.

Nazir Anar Kərimov Ağdam rayonu Mahrızlı kəndindəki cəsur əsgər Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyinin fəaliyyəti ilə də yaxından maraqlanıb. Məlumat verilib ki, Rahib Məmmədov (1967-1987) Sovet ordusu sıralarında hərbi xidməti zamanı Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində təbii fəlakət zamanı öz həyatı bahasına yerli əhalini ölümün pəncəsindən xilas edib. Muzeydə R.Məmmədovun şəxsi əşyaları, onun haqqında materiallar dərc olunan qəzet və jurnallar, eləcə də kitablar sərgilənir. Muzeydə həmçinin Qarabağ döyüşlərində canlarını qurban verən igid oğulların şəxsi əşyaları, məktublar, hərbi geyimlər nümayiş etdirilir. Qeyd olunub ki, döyüş bölgəsində yerləşən Mahrızlı kəndi Vətən müharibəsi zamanı ermənilərin atdığı raket zərbələrinə məruz qalıb. Kənddə atılmış raketlərin parçalanmış hissələri də muzeydə sərgilənir.

Daha sonra nazir Quzanlı qəsəbəsindəki Ağdam Muğam Mərkəzində təşkil olunan konsert proqramını izləyib. Konsertdə "Şur" ansamblının ifasında musiqi nömrələri səsləndirilib.

## Muzeydə Müstəqillik Günü

Mayın 26-da Musiqi Mədəniyyəti Dövlət Muzeyində 28 May – Müstəqillik Günü qeyd edildi. Çıxışlardan əvvəl Müstəqillik Gününə həsr edilən videoçarx nümayiş edildi.

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova tədbiri açaraq Azərbaycan xalqının XX əsrin əvvəlində müsəlman Şərqində ilk demokratik respublika qurmasının tarixi əhəmiyyətindən danışdı.

Muzeyin böyük elmi işçisi Aynur Müfidzadə "Azərbaycan Xalq Cümhuriyyəti dövründə mədəniyyətimiz" mövzusunda çıxış etdi.

Sonra musiqi proqramı təqdim edildi. Muzeyin Qədim musiqi alətləri ansamblının müşayiəti ilə solistlər – Xalq artisti Teyyub Aslanov, Əməkdar artist Nuriyyə Hüseynovanın ifasında Emin Sabitoğlunun "Azərbaycan", Üzeyir Hacıbəylinin "Çırpınırdın, Qara dəniz", "Əlində sazın qurbanı" xalq mahnısı, Cəfər Cabbarlının "Türk marşı", "Bayatı-Şiraz" təsnifi və "Rast" rəngi ifa olundu. Çıxışlar alqışlarla qarşılandı.

**S.Fərəcov**

# Şuşanın 90 yaşlı sənət ocağı

## Niyazi adına Uşaq incəsənət məktəbinin yubileyi keçirildi

əvvəli səh. 1-də

Diqqətə çatdırılıb ki, Azərbaycan vokal sənətinin banisi Bülbülün təşəbbüsü ilə, Azərbaycan SSRİ Xalq Maarif Komissarlığının 10 oktyabr 1932-ci il tarixli qərarına əsasən, Şuşada yaradılmış təhsil ocağı respublikamızda ilk musiqi məktəblərindən biri olub. Xan qızı Natəvanın evi olmuş tarixi binada fəaliyyətə başlayan məktəbin ilk illərində Əməkdar incəsənət xadimi Qəmbər Hüseynli, Əməkdar müəllim Fatma Zeynalova, professor Aleksey Raxmanov, Lətif Əliyev kimi müəllimlərin ixtisaslı musiqiçi kadrların hazırlanmasında böyük xidmətləri olub. O dövrün məşhur tarzəni Rəsul Əsədov bu təhsil ocağında şagirdləri – sonradan istedadlı tarzənlər kimi tanınmış İsi Abbasov, İmran Səfiyev, Aslan Qaraşarov, görkəmli bəstəkarlar Əşrəf Abbasov və Süleyman Ələsgərova tar ifaçılığının sirlərini böyük həvəslə öyrədib. Dünya şöhrətli bəstəkar Arif Məlikov bir müddət Şuşa Musiqi məktəbində müəllim kimi çalışıb.



1984-cü ildə görkəmli dirijor, bəstəkar Niyazinin vəfatından sonra məktəbə onun adı verilib. Beləliklə, 1984-cü ildən etibarən Şuşa şəhər Musiqi məktəbi, Niyazi adına Şuşa şəhər Uşaq incəsənət məktəbi kimi fəaliyyətini davam etdirir.

Yubiley mərasimində mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, Şuşa Şəhər İcra Hakimiyyəti başçısının müavini Vüsalə Fətəliyeva, Xalq artistləri Ramiz Quliyev və Vamiq Məmmədəliyev çıxış ediblər.

Çıxış edənlər məktəbin kollektivinə yubiley münasibətilə təbriklərini çatdırıb, təhsil ocağının bundan sonra da yeni-yeni uğurlar qazanacağına əminliklərini ifadə ediblər. Ulu öndər Heydər Əliyevin Azərbaycanda musiqi təhsilinin inkişafına, istedadlı uşaq və gənclərin dəstəklənməsinə xüsusi qayğısından danışan natiqlər bu gün ölkəmizdə mədəniyyət sahəsinə göstərilən diqqətə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

Sonra Şuşa şəhər Niyazi adına Uşaq incəsənət məktəbinin 90 illik yubileyi münasibətilə və gənc nəslin estetik tərbiyəsində səmərəli fəaliyyətinə görə Mədəniyyət Nazirliyi və Şuşa Şəhər İcra Hakimiyyətinin fəxri fərmanları məktəbin direktoru Anar Əlizadəyə təqdim olunub.

Tədbir konsert proqramı ilə davam edib.

# Fuad Əbdürrəhmanovun "Monumental həyat"ı

## "O, Azərbaycan heykəlinin "oxu"nu elə atdı ki, uca zirvələrə çatdı..."

əvvəli səh. 1-də

Təqdimatda çıxış edən Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov Fuad Əbdürrəhmanovu qeyri-adi sənətkar kimi xarakterizə etdi: "Onun sənəti təkcə Azərbaycanda deyil, xarici ölkələrdə də tanınır. Fuad Əbdürrəhmanovun yaradıcılığı təkrarolunmazdır. Mən xoşbəxtəm ki, onunla uzun illər bir yerdə olmuşam".

Xalq rəssamı bildirdi ki, görkəmli ədəbiyyat və incəsənət xadimlərinin, sərkərdələrin, qəhrəmanların paytaxtımızı bəzəyən heykəlləri F.Əbdürrəhmanov yaradıcılığının məhsuludur. Tişə ustasının monumental heykəltəraşlıq abidələrinə Bakıda Nizami Gəncəvi, Səməd Vurğun və Sovet İttifaq Qəhrəmanı Mehdi Hüseynzadənin, Düşənbədə Rudəkinin, Buxarada İbn Sinanın ucaldılmış abidələrini misal göstərmək olar.

Mərasimdə çıxış edən millət vəkili, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael



Hüseynov bildirdi ki, bundan 100 il əvvəl Azərbaycanın mədəniyyət həyatında son dərəcə əhəmiyyətli bir hadisə baş verib: "1922-ci il aprelin 28-də indiki Sabir bağında görkəmli şairin ilk heykəli ucaldılıb. 1922-ci ildə Azərbaycanın ən ağır heykəli ucalan vaxtda ölkəmizin sabahkı ən birinci heykəltəraşı Fuad Əbdürrəhmanov cəmi 7 yaşı vardı. Fuad Əbdürrəhmanovun Azərbaycan tarixindəki ən böyük xidməti ondan ibarətdir ki, bu cavan sənəti dünya səviyyəsinə qaldırmağı bacardı. Bu onun Azərbaycan tarixinə, millətinə müstəsna bir hədiyyəsidir".

Rafael Hüseynov dedi ki, 1934-cü ildə, 19 yaşı olanda Fuad Əbdürrəhmanov ilk müstəqil işini, böyük heykəlini yaradıb: "O heykəlin adı "Oxatan"dır. Süjeti "Şahnamə"dən alıb. Çünki 1934-cü ildə görkəmli İran şairi Ə.Firdovsinin 1000 illiyi idi. Bu heykəlin Fuad Əbdürrəhmanovun sonrakı taleyində silinməz izi var. Sənətkar bu heykəllə, əslində, öz obrazını yaradıb. O, Azərbaycan heykəlinin "oxu"nu elə atdı ki, bu "ox" uçduqca uçdu və uca zirvələrə çatdı...".

Daha sonra "Monumental həyat" sənədli filmi nümayiş etdirildi.

Nümayişdən sonra çıxış edən filmin layihə rəhbəri, millət vəkili Cavanşir Feyziyev vurğuladı ki, Fuad Əbdürrəhmanov yaradıcılığının dərinliyini bu sənəti seçmiş gənc heykəltəraşlar araşdıracaq, onun sənətkarlığının böyüklüyünü, möhtəşəmliyini bir daha sübut edəcəklər.

Sənətkarın nəticəsi Dərya Əbdürrəhmanova filmin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Sonda çıxış edən filmin baş prodüseri, gənc heykəltəraş Namiq Hüseynov tədbir iştirakçılarına minnətdarlıq etdi.

Qeyd edək ki, filmin layihə rəhbəri Cavanşir Feyziyev, baş prodüseri Namiq Hüseynov, rejissoru Samir Kərimoğlu, montajçısı Zaur Xalisoğlu, art direktoru isə İqbal Məmmədliyevdir.

**Nurəddin Məmmədli**

əvvəli səh. 1-də

Direktor qeyd etdi ki, ulu öndər Heydər Əliyev ədibin yaradıcılığını yüksək qiymətləndirib. Yazıçının yaradıcılığı ona görə həmişəyaşardır ki, bu əsərlərdə Azərbaycanın tarixi, mədəniyyəti, adət-ənənələri, milli-mənəvi dəyərlərimiz geniş şəkildə təsvir olunub. Müəllifin səhnələşdirilən əsərləri neçə-neçə aktyor, rejissor yetişdirib. Bu gün isə ədibin yolunu oğlu Xalq yazıçısı Elçin davam etdirir. Dövr, zaman dəyişsə də, İlyas Əfəndiyevin əsərləri daim oxunacaq və öz dəyərini qoruyub saxlayacaq.

Tədbirdə çıxış edən mədəniyyət naziri Anar Kərimov bildirdi ki, bu gün ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri, Azərbaycan tarixi yaddaşının, milli məfkurəsinin inkişafında müstəsna xidmətləri olan İlyas Əfəndiyevin doğum günü ərəfəsində böyük onun həyat və yaradıcılığının maraqlı məqamlarının əks olunduğu fotoalbomun təqdimatına toplaşmışıq. İlyas Əfəndiyev Azərbaycan ədəbiyyatı üçün çox önəmli irs qoyub gedib. O, sovet ideologiyası zamanı öz əsərlərində azərbaycançılıq və milli kimlik məsələlərinə işıq tutub. Gənclərimizin vətənpərvər ruhda yetişməsində onun əsərlərinin mühüm rolu var.

İlyas Əfəndiyev yaradıcılığının ölkəmizlə yanaşı, xaricdə də tanındığını bildirən nazir dedi ki, Prezident İlham Əliyev ədibin 90 və 100 illik yubileyləri ilə bağlı 2004 və 2014-cü illərdə sərəncamlar imzalayıb. 2014-cü ildə yazıçının 100 illiyi UNESCO səviyyəsində də geniş qeyd olunub. İlyas Əfəndiyevin yaradıcılığını yüksək qiymətləndirən ulu öndər Heydər Əliyev onun Milli Dram Teatrında tamaşaya qoyulan pyeslərinin premyerasında iştirak edib. Təsadüfi deyil ki, uzun illərdir Akademik Milli Dram Teatrı yeni mövsümünü ədibin "Hökmdar və qızı" pyesi əsasında hazırlanan "Qarabağnamə" tamaşası ilə açır.

# Ədəbiyyatda və teatrda məktəb yaradan sənətkar

## "İlyas Əfəndiyev. Geriyə baxarkən" fotoalbomunun təqdimat mərasimi keçirildi



AMEA-nın vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli qeyd etdi ki, İlyas Əfəndiyev sovet dövrü Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsidir, amma sovet dövründə əsas olan sosializm realizmi kimi ideyalar onun əsərlərinə yaddır. Sovet ədəbiyyatı nikbin notlar üzərində qurulsa da, İlyas Əfəndiyevin əsərlərində həm nikbin, həm də nisgilli notlar hiss olunur. Yazıçı zamanı qabaqlayan bir şəxsiyyət olub. Onun yaradıcılığında lirik-psixoloji yanaşma özünəməxsus yer tutur.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli görkəmli yazıçı ilə bağlı xatirələrini bölüşdü. Diqqətə çatdırdı ki, biz həmişə Azərbaycan teatrının müasir olmasını arzu edirdik. Biz həmin müasirliyə İlyas Əfəndiyevin əsərləri sayəsində çatdıq.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov bildirdi ki, İlyas Əfəndiyevin ədəbiyyatımıza, teatrımıza verdiyi töhfələr heç vaxt unudulmayacaq.

Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı fotoalbomu ədəbi həyatımıza töhfə kimi dəyərləndirdi. Bildirdi ki, İlyas Əfəndiyev həm ədəbiyyatda, həm də teatrda məktəb yaradıb. Zamanın tələbələrinə əyilməyərək öz dəst-xətti ilə seçilib. Ədib Azərbaycan tarixini, qadın azadlığı kimi məsələləri ədəbiyyatımıza gətirərək əsərlərində qadın baş qəhrəmanlara daha çox yer ayırıb.

Tədbirdə daha sonra Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Xalq şairi Ramiz Rövşən, Xalq artistləri Mərahim Fərzəlibəyov, Bəsti Cəfərova, Milli Məclisin deputatları Vüqar İsgəndərov, Aqil Abbas, AMEA Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, professor Rüstəm Kamal və başqaları İlyas Əfəndiyevin çoxşaxəli yaradıcılığından danışdılar.

Kitabın hazırlanmasında xüsusi əməyi olan yazıçının nəvəsi Günay Əfəndiyeva deyib: "Qarşımızda nəhəng bir irs vardı. Kitabı hazırlayarkən biz sanki İlyas Əfəndiyevin həyatını, həm də o dövrü yenidən yaşayırdıq. Ona görə də kitab "Geriyə baxarkən" adlanır. Bu gün biz Qarabağla bağlı əsərləri daha çox təbliğ etməliyik. İlyas Əfəndiyevin bütün yaradıcılığından Qarabağ mövzusu qırmızı xətlə keçir...".

Çıxışlardan sonra Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan "Bədii fikir tariximizin fenomeni – Xalq yazıçısı İlyas Əfəndiyev" adlı elektron məlumat bazası təqdim olundu. Məlumat bazası "Rəsmi sənədlər", "Sənətkarın yaşamaq haqqı", "Həyat və fəaliyyətinin əsas tarixləri", "Görkəmli şəxslər İlyas Əfəndiyev haqqında", "Müdrik deyimləri", "Ədəbiyyat və mədəniyyət xadimləri haqqında fikirləri", "Əsərləri", "Haqqında", "Mükafatları", "Xatirəsinin əbədiləşdirilməsi", "Filmoqrafiya", "Fotoqalereya" və "Videoqalereya" bölmələrindən ibarətdir.

AYB-nin sədri, Xalq yazıçısı Anar çıxış edərək onu da diqqətə çatdırdı ki, qurum tərəfindən "İlyas Əfəndiyev mükafatı" təsis edilib. İlk mükafatın Qarabağdan daha çox yazan millət vəkili, Əməkdar jurnalist Aqil Abbasa verilməsi barədə qərar qəbul olunub. Sonra AYB-nin "İlyas Əfəndiyev mükafatı" A.Abbasa təqdim edildi.

Sonda görkəmli ədibin ailəsi adından çıxış edən Xalq yazıçısı Elçin fotoalbomun nəşri və tədbirin təşkilatçılığına görə Mədəniyyət Nazirliyinə və Milli Kitabxanaya təşəkkürünü bildirdi.

Tədbir iştirakçıları "Xalq yazıçısı İlyas Əfəndiyev" adlı kitab sərgisi ilə tanış oldular.

**Savalan Fərəcov**

# Bir qrup mədəniyyət və incəsənət xadiminə dövlət təltifləri təqdim edilib

Mayın 25-də Azərbaycan Milli Xalça Muzeyində Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edilmiş bir qrup mədəniyyət və incəsənət xadiminə mükafatlar təqdim olundu.

Mədəniyyət naziri Anar Kərimov çıxış edərək ölkəmizdə mədəniyyət və incəsənət xadimlərinə göstərilən dövlət qayğısından danışdı. Bildirdi ki, vaxtilə ulu öndər Heydər Əliyev tərəfindən yaradıcı şəxslərə göstərilən diqqət və qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mədəniyyətimizin dünyada tanıdılması və təbliği istiqamətində görülən işlərdən söz açan nazir Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu sahədə xidmətlərini xüsusi vurğuladı.



Nazir daha sonra dedi: "Mədəniyyət ölkənin ən vacib sahələrindən biridir. Biz mədəniyyəti çox geniş məfhum kimi görürük. Yanaşamamız ondan ibarətdir ki, cəmiyyətimizin inkişafında, yeni nəsillərin düzgün tərbiyə edilməsində mədəniyyətin rolu artırılmalıdır. Mədəniyyət həm də dövlətçiliyimizin rəmzlərindən biridir. Xüsusi olaraq qeyd etmək istərdim ki, bu sahədə çalışan hər bir insan öz peşəsi ilə çox vacib missiyanı yerinə yetirir. Hər birinizin öz sahəsində mədəniyyətimizin zənginləşdirilməsi, cəmiyyətin inkişafı və gənc nəslin milli ruhda tərbiyəsində böyük rolu var. Cəmiyyət həm də mədəniyyətlə möhkəm və güclü ola bilər. Onu güclü edən bu sahənin görkəmli simalarıdır".

Anar Kərimov qeyd etdi ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun 30 ilə yaxın işğal altında olan torpaqlarımızı azad etməsi, ərazi bütövlüyümüzün bərpası ölkəmizdə yeni reallıqlar yaradıb. Bu bütövləşmə eyni zamanda mədəniyyətimizi də əhatə edir. Vətən müharibəsi sona çatsa da, informasiya savaşımız davam etməkdədir: "Bu məsələdə mədəniyyət ictimaiyyətinin üzərinə də mühüm missiya düşür. Sizlər, bizlər öz cəbhəmizdə vəzifəmizi layiqincə yerinə yetirməli, mədəniyyətimizi həm ölkə daxilində, həm də xaricdə davamlı tanıtmalıyıq. Qarabağımızda mədəniyyətimizi dirçəltmək üçün əlimizdən gələni etməliyik. Biz müharibə dövründə bir yumruq kimi cənab Prezidentin ətrafında birləşib Ordumuza dəstək olmuşduqsa, bundan sonra da bu missiyanı şərəflə davam etdirməli, əldə etdiyimiz Zəfərin yaratdığı əhval-ruhiyyəni əsərlərimiz, fəaliyyətimizlə möhkəmləndirməliyik. Bu Zəfər ruhunun zəifləməsinə imkan verməyək. İşğaldan azad olunan ərazilərimizi yenidən qurmaq, bərpa etmək, mədəniyyətimizi, kimliyimizi, ruhumuzu həmin torpaqlara qaytarmaq üçün birgə çalışmalıyıq".

Nazir çıxışının sonunda mədəniyyət və incəsənət xadimlərini dövlət təltifləri və qarşıdan gələn 28 May – Müstəqillik Günü münasibətilə təbrik etdi, yeni yaradıcılıq uğurları arzuladı.

1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilən Xalq rəssamı, Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov çıxış edərək Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sənətinə və fəaliyyətinə göstərdikləri diqqətə görə təşəkkür etdi. O, tariximizin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən 44 günlük müharibədə qazandığımız Zəfərin əhəmiyyətini qeyd edərək mədəniyyət xadimlərinin, o cümlədən Rəssamlar İttifaqının da həmrəy olaraq haqq səsimizin beynəlxalq sənət aləminə çatdırılmasına çalışdığını dedi.

Daha sonra mükafatlar sahiblərinə təqdim edildi. Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təltif olunmuş şəxslərə 1-ci dərəcəli "Əmək" ordeni, 3-cü dərəcəli "Əmək" ordeni, "Əməkdar mədəniyyət işçisi", "Tərəqqi" medalı, "Əməkdar artist", "Əməkdar rəssam" fəxri adlarının nişanı və vəsiqələri təqdim olundu.

**Lalə**

# Türkiyə ilə mədəni əməkdaşlıq məsələləri müzakirə olunub

Mayın 25-də mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev ölkəmizdə səfərdə olan Türkiyə mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslanla görüşüb.



Qonağı salamlayan Elnur Əliyev Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən yeni layihələr haqqında məlumat verib.

44 günlük Vətən müharibəsi haqqında söz açan nazirin birinci müavini bildirib ki, bu gün azad olunmuş torpaqlara mədəniyyətin qaytarılması və bu qədim bölgəmizin mədəni irsinin təbliği istiqamətində ardıcıl iş aparılır: "Vətən müharibəsində olduğu kimi, Qarabağın mədəni quruculuğunda da qardaş Türkiyəni yanımızda görmək istəyirik".

Türkiyə mədəniyyət və turizm nazirinin müavini Nadir Alpaslan səmimi qəbula görə Elnur Əliyevə təşəkkürünü bildirib. O, Türkiyə olaraq hər zaman Azərbaycana dəstək olduqlarını və bundan sonra da bu dəstəyin davam edəcəyini vurğulayıb. Bildirib ki, son 30 ildə iki ölkə arasında bütün sahələrdə uğurlu əməkdaşlıq əlaqələri qurulub. Mədəniyyətin müxtəlif sahələri üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün daha böyük imkanlar var. Bunun üçün müvafiq mütəxəssislər arasında təcrübə mübadiləsi əhəmiyyətli olar.

Azərbaycan rəqslərinin özünəməxsusluğu haqqında fikirlərini bölüşən Nadir Alpaslan bu sahədə əlaqələrin inkişaf etdirilməsi üçün yeni layihələr haqqında düşündüklərini diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycanda hər rəqsin öz libası, öz elementləri var və xalq bu rəqsləri çox sevir, yüksək dəyərləndirir.

Şuşa şəhərinin 2023-cü ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" seçilməsini məmnunluqla qarşıladıqlarını bildirən Nadir Alpaslan bununla bağlı yeni konsepsiyanın hazırlanıb təqdim ediləcəyini vurğulayıb. O, iki ölkə arasında müştərək filmin hazırlandığını da bildirib.

Mədəniyyətin bir sıra sahələrində birgə yeni layihələrin həyata keçiriləcəyini deyən qonaq işğal zamanı Ermənistan tərəfindən dağıdılmış tarix-mədəniyyət abidələrinin tanıdılması istiqamətində bundan sonra da dəstək göstərəcəklərini vurğulayıb.

Ermənilərin Azərbaycan musiqi və rəqslərini öz adlarına çıxdıqlarını, beynəlxalq aləmdə bunun təbliğatını apardıqlarını diqqətə çatdıran Elnur Əliyev bu problemin qarşısının alınmasında təbliğatın mühüm rol oynadığını deyib. Qeyd edib ki, bəzən məlumatsızlıq səbəbindən hətta qardaş Türkiyədə belə musiqi və rəqslərimiz Qafqaz və ya "anonim" adı ilə təqdim olunur. Buna görə də iki ölkənin bu sahədə də daha yaxın əməkdaşlığına ehtiyac var.

Daha sonra görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.







# "Yeni adlar"da yeni ifalar

## Layihənin növbəti konserti

Mədəniyyət Nazirliyi tərəfindən bu ilin mart ayından həyata keçirilən "Yeni adlar" layihəsi davam edir.

Layihə üzrə növbəti musiqi axşamı mayın 24-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında gerçəkləşdi. Gənc musiqiçilər – respublika və beynəlxalq müsabiqələr laureatları Tahir Əmrahov (tar) və Cahandar Xanlarovun (kamança) iştirakı ilə konsert proqramı təqdim olundu.

Musiqiçiləri Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri (dirijor – Əməkdar artist İlahə Hüseynova) müşayiət edirdi.

Musiqi axşamının tamaşaçıları arasında Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi Musiqi sektorunun müdiri Vüqar Hümbətov, mədəniyyət və incəsənət xadimləri vardı.

Proqramda Tofiq Bakıxanovun "Tar və orkestr üçün 1 nömrəli konsert"i və Hacı Xanməmmədovun "Kamança və orkestr üçün konsert"i ifa olundu. Çıxışlar alqışlarla qarşılandı.

***

"Yeni adlar"ın budəfəki iştirakçılarını yaxından tanıyaq.

Tahir Əmrahov 1993-cü ildə Sabirabad rayonunda anadan olub. 2009-cu ildə Ş.Ələkbərova adına 20 nömrəli onbirillik Musiqi məktəbini tar sinfi üzrə bitirərək həmin ildə Azərbaycan Milli Konservatoriyası (AMK) nəzdində Musiqi Kollecinə, 2006-cı ildə Azərbaycan Milli Konservatoriyasına qəbul olunub.

T. Əmrahov 2005-ci ildə H.Xanməmmədov adına VII Bakı uşaq musiqi müsabiqəsində II yer, 2008-ci ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illik yubileyinə həsr olunmuş I Respublika müsabiqəsində II yer, həmin ildə Xalq çalğı alətləri üzrə respublika müsabiqəsində I yer, 2010-cu ildə N.Əliverdibəyov adına Gənc ifaçıların V ümumşəhər müsabiqəsində III yerə layiq görülüb. O, 2011-ci ildə dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş Milli musiqi alətləri ifaçılarının Respublika festivalında I yerin qalibi, 2012-ci ildə görkəmli tarzən, Xalq artisti Ə.Bakıxanovun 120 illik yubileyinə həsr olunmuş Musiqi Kolleci tələbələri arasında Tar ifaçılarının muğam müsabiqəsinin qalibi adını qazanıb. 2012-ci ildə görkəmli bəstəkar, SSRİ Xalq artisti F.Əmirovun 90 illik yubileyinə həsr olunmuş Orta ixtisas musiqi məktəbləri arasında gənc ifaçıların Respublika müsabiqəsində I yerin qalibi olub, milli musiqi alətləri ifaçıları və xanəndələrin Bülbül adına müsabiqəsində III yerə layiq görülüb.

Süleyman Ələsgərov Mədəniyyət Fondu tərəfindən mükafat və təqaüdə layiq görülən tarzən 2013-cü ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi münasibətilə tələblər arasında musiqi ifaçılarının müsabiqəsində I yer, 2019-cu ildə Qazaxıstanda keçirilən "Fiestalonia-Almaty" Beynəlxalq müsabiqəsində I yerin qalibi olub. Həmin ildə dünya şöhrətli müğənni Sami Yusufla uğurlu konsertinə görə Mədəniyyət Nazirliyi tərəfindən fəxri fərmanla təltif edilib.

Cahandar Xanlarov 1997-ci ildə Bakı şəhərində anadan olub. 2014-cü ildə L.və M.Rostropoviçlər adına 21 nömrəli onbirillik Musiqi məktəbini kamança sinfi üzrə bitirərək həmin ildə Azərbaycan Milli Konservatoriyasına daxili olub. 2016-cı ildən bakalavr təhsilini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində davam etdirib. 2018-ci ildə həmin universitetdə magistr təhsili almağa başlayıb, 2020-ci ildə təhsilini başa vurub.

C.Xanlarov 2010-cu ildə Mədəniyyət Nazirliyinin təşəbbüsü ilə keçirilən II Respublika müsabiqəsində I dərəcəli diploma layiq görülüb, 2010-cu ildə Mərakeşin Rabat şəhərində keçirilən Mədəniyyət və incəsənət festivalının qalibi olub. 2011-ci ildə müstəqilliyimizin bərpasının 20-ci il dönümünə həsr olunmuş festivalda I dərəcəli diplom, 2013-cü ildə milli musiqi alətləri ifaçıları və xanəndələrin Bülbül adına müsabiqəsində I dərəcəli diplomla təltif edilib. 2013-cü ildə ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş "Azərbaycan səninlədir – Sənsiz deyil" III yaradıcılıq müsabiqəsinin qalibi olub.

2013-cü ildə C.Xanlarovun adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılıb və Azərbaycan Respublikası Prezidentinin xüsusi aylıq təqaüdünə layiq görülüb. 2015-ci ildə Rusiya Federasiyasının Həştərxan şəhərində keçirilən "Qolosa Zolotoy stepi" adlı Beynəlxalq müsabiqəsində II dərəcəli diplom, 2016-cı ildə İspaniyanın Lloret de Mar şəhərində keçirilən "Qran Flesta" Beynəlxalq incəsənət festivalı və müsabiqəsində II dərəcəli diplomla təltif edilib, 2017-ci ildə Qəbələ Beynəlxalq Musiqi Festivalının iştirakçısı olub.

**Nurəddin**

# Musiqi məktəbi müəllimlərinin "Şuşa İli"nə konsert töhfəsi

May ayı musiqi məktəbləri üçün xüsusilə əlamətdardır. Bu təhsil ocaqları bir qayda olaraq bu ayın sonunda illik hesabat konsertlərini təqdim edirlər.



Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Kövkəb Səfərəliyeva adına 16 nömrəli Uşaq musiqi məktəbinin bu dəfə təşkil etdiyi konsert öz fərqliliyi ilə seçilirdi. Bu dəfə səhnədə şagirdlər deyil, məktəbin müəllimləri idi. Konsert "Şuşa İli"nə həsr olunmuşdu.

Tədbirdə Bakı Şəhər İdarəsinin rəisi İbrahim Əliyev, uşaq musiqi, incəsənət məktəblərinin direktorları və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Əvvəlcə müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il noyabrın 8-də Şuşanın azad olunması ilə əlaqədar xalqımıza müraciəti səsləndirildi.



Aparıcı 44 günlük Vətən müharibəsindən, Qarabağın baş tacı Şuşanın azad edildiyi günün Zəfər Günü kimi tariximizə qızıl hərflərlə yazılmasından, ölkəmizin mədəniyyət paytaxtı elan edilən qala-şəhərimizdə aparılan bərpa-quruculuq işlərindən, keçirilən festival və konfranslardan söz açdı.

Sonra musiqi məktəbi müəllimlərinin tərtib etdiyi rəngarəng konsert proqramı təqdim edildi. Müəllimlərin ifasında Azərbaycan və xarici ölkə bəstəkarlarının əsərləri səsləndikcə bu təhsil ocağında oxuyanların uğurlarını və tədrisin səviyyəsini də təxmin etmək mümkün idi. Müəllimlərdən ibarət simli kvartet, fortepiano, kamança, qarmon, qanun, vokal, fleyta alətlərində məharətli çıxışlar alqışlarla qarşılandı.

Konsertin sonunda məktəbin direktoru, Əməkdar müəllim Fikrət Budaqov çıxış edərək kollektivə və tədbirə qatılan qonaqlara təşəkkürünü bildirdi.

Baş idarənin rəisi İbrahim Əliyev çıxışında dedi ki, dövlət başçısı Şuşanın xalqımız üçün tarixi əhəmiyyətini, yüksək mədəni-mənəvi dəyərini nəzərə alaraq 2022-ci ili "Şuşa İli" elan edib. Azərbaycanın mədəniyyət paytaxtı, dilbər guşəmiz Şuşada bərpa işləri uğurla davam etdirilir. Konsertin gənc nəslin estetik tərbiyəsi ilə yanaşı, onlarda vətənpərvərlik hisslərinin aşılanmasına da xidmət etdiyini bildirən İbrahim Əliyev məktəbin kollektivinə maraqlı proqrama görə təşəkkür etdi, uğurlar arzuladı.

**Lalə Azəri**

# Müstəqillik əvəzsiz nemətdir

Mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104 yaşı tamam olur. Bölgələrdəki mədəniyyət müəssisələrində 28 May – Müstəqillik Günü münasibətilə bir sıra tədbirlər keçirilib.



Ağcabədi Regional Mədəniyyət İdarəsi (RMİ) Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Əbədi müstəqillik" adlı sərgi açılıb. Mayın 31-dək davam edəcək sərgidə Ağcabədi şəhər Üzeyir Hacıbəyli adına Uşaq incəsənət məktəbi, Ağcabədi Dövlət Rəsm Qalereyası və Heydər Əliyev Mərkəzində fəaliyyət göstərən dərnək üzvlərinin əl işləri nümayiş etdirilir.

***

Ağdaş RMİ Zərdab Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Müstəqilliyimiz əbədidir" adlı tədbir keçirilib.

***

Şəmkir RMİ Daşkəsən rayon Mədəniyyət Mərkəzinin filialı olan Quşçu kənd Folklor evi və Quşçu kənd kitabxanasının birgə təşkilatçılığı ilə "Müstəqillik" adlı tədbir keçirilib.

***



Sabirabad RMİ Hacıqabul rayon Heydər Əliyev Mərkəzində "28 May – Müstəqillik Günü: müsəlman Şərqində ilk dünyəvi demokratik dövlətin – Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün" adlı tədbir keçirilib. Tədbirdə Cümhuriyyətin tarixindən bəhs edən sənədli film nümayiş etdirilib.

***

Ağstafa RMİ Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbinin pedaqoji kollektivi "Bir kərə yüksələn bayraq, bir daha enməz!" başlıqlı tədbir keçirib. Tədbirdə məktəbin direktoru Çiçək Maşayeva çıxış edərək Cümhuriyyətin yaranması haqqında məlumat verib.

***




Bərdə RMİ Bərdə şəhər 3 nömrəli Uşaq musiqi məktəbi, 3 nömrəli şəhər klubu və Bərdə Dövlət İdarəetmə və Texnologiya Kollecinin birgə təşkilatçılığı ilə "Nə şirin sözdür azadlıq" adlı tədbir təşkil olunub. Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova çıxış edərək Cümhuriyyətin tarixindən söz açıb. Tədbir Bərdə şəhər 3 nömrəli Uşaq musiqi məktəbi müəllimlərinin ifasında rəngarəng musiqi nömrələri ilə davam edib.

***

Masallı RMİ Masallı Tarix-Diyarşünaslıq Muzeyində "Heydər Əliyev və Azərbaycan Xalq Cümhuriyyəti" mövzusunda dəyirmi masa təşkil olunub. Tədbirdə muzeyin və Masallı Dövlət Rəsm Qalereyasının əməkdaşları iştirak ediblər.

# Mədəniyyət naziri Ağdamda vətəndaşları qəbul edib

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu keçirilir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həlli ilə əlaqədar müvafiq addımlar atılır.

2022-ci ilin may ayı üzrə qəbul cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov mayın 26-da Ağdam rayonunun Quzanlı qəsəbəsində Ağdam, Ağcabədi və Laçın rayonlarının sakinləri ilə görüşüb.

Qəbuldan öncə nazir Anar Kərimov və Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov ümummilli lider Heydər Əliyevin Quzanlı qəsəbəsindəki abidəsini ziyarət edərək önünə tər çiçəklər qoyublar.

Mədəniyyət naziri Quzanlı qəsəbəsində yerləşən Heydər Əliyev Mərkəzinin fəaliyyəti ilə tanış olub, mərkəzdə ulu öndərin həyat



və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən foto və eksponatlara baxış keçirib. Məlumat verilib ki, elektron kitabxana, müxtəlif tədbirlərin keçirilməsi üçün iclas zalının mövcud olduğu mərkəzdə həmçinin 3D kino zalı, rəqs studiyası, kompüter və digər müasir avadanlıqla təchiz olunan xidməti otaqlar fəaliyyət göstərir.

Daha sonra Ağdam rayon Heydər Əliyev Mərkəzində nazirliyin məsul əməkdaşlarının da iştirakı ilə vətəndaşların qəbulu keçirilib.

Ağdam, Ağcabədi və Laçın rayonlarından olan sakinlərin müraciətləri əsasən işlə təmin olunma, mədəniyyət müəssisəsinə əlavə ştatların ayrılması və digər məsələləri əhatə edib. Görüşdə vətəndaşlar tərəfindən rayondakı incəsənət məktəblərində rəssamlıq ixtisası üzrə tədrisin səviyyəsinin daha da yüksəldilməsi və gənc istedadların üzə çıxarılması ilə bağlı da təkliflər irəli sürülüb.

Anar Kərimov vətəndaşların ayrı-ayrı məsələlərlə bağlı müraciət və təkliflərini dinləyib, ərizə və şikayətlərinə baxıb. Qaldırılan məsələlərin operativ, hərtərəfli araşdırılması və qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün müvafiq tapşırıqlar verilib.

Nazirliyin fəaliyyət istiqamətlərinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

# Şuşa – bitən həsrətin hekayəsi

Yerlərdəki mədəniyyət müəssisələrində "Şuşa İli" münasibətilə müxtəlif səpkili tədbirlər davam etdirilir.



Sumqayıt RMİ Sumqayıt şəhər "28 May" Mədəniyyət evində F.Əmirov adına 5 nömrəli Uşaq musiqi məktəbinin "Mədəniyyət paytaxtımız" adlı hesabat konserti keçirilib. Konsertdə Ü.Hacıbəylinin "Sənsiz", R.Hacıyevin "Gənclik nəğməsi", C.Cahangirovun "Qəzəl", S.Ələsgərovun "Poema" və digər əsərlər səsləndirilib. Sonda Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev çıxış edərək məktəbin kollektivinə uğurlar arzulayıb.

Abşeron rayon Mehdiabad qəsəbə Uşaq musiqi məktəbinin saz ixtisası üzrə müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Hafiz Kərimovun təşkilatçılığı ilə "Şanlı Zəfərimiz" adlı sinif konserti keçirilib. Konsertdə Sumqayıt RMİ-nin baş məsləhətçisi, Abşeron rayonu üzrə nümayəndə İlham Manafov, ADMİU Aşıq sənəti kafedrasının müdiri, Əməkdar mədəniyyət işçisi, dosent Əhliman Rəhimov, filologiya üzrə fəlsəfə doktoru Fəzail Miskinli və digər qonaqlar iştirak ediblər. Şagirdlərin ifasında aşıq havaları və Azərbaycan bəstəkarlarının əsərləri təqdim olunub.

Qubadlı rayon MKS-də "Azad Qarabağım və "Şuşa İli" adlı tədbir keçirilib. Tədbirdə "Qubadlı yazarları" adlı kitab sərgisinə baxış olub. Rayon Mahmudlu kənd tam orta məktəbinin müəllim və şagirdləri vətənpərvərlik ruhlu şeirlər deyiblər.

Zəngilan Rayon Tarix Diyarşünaslıq Muzeyi və Ağdam rayon C.Qaryağdıoğlu adına 1 nömrəli Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə "Əziz Şuşa, biz qayıtmışıq!" adlı tədbir keçirilib. Şagirdlər mahnı və şeirlər oxuyublar.

***




Şəki RMİ Şəki şəhər Heydər Əliyev Mərkəzində "Xan Şuşinski və Şuşanın dağları" adlı tədbir keçirilib. Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov və Şəki RMİ-nin rəisi vəzifəsini müvəqqəti icra edən Tərlan Nəsibovun çıxışları dinlənilib. Bədii hissədə şəhər 4 saylı Uşaq musiqi məktəbinin və Şəki Dövlət Regional Kollecinin kollektivi maraqlı konsert proqramı təqdim edib.

Qax rayon Mədəniyyət Mərkəzində "Şuşa – bitən həsrətin hekayəsi" adlı ədəbi-bədii gecə keçirilib. Mərkəzin hazırladığı rəngarəng konsert proqramı təqdim edilib, Qax rayon Mərkəzi Kitabxanası tərəfindən tərtib edilmiş kitab sərgisi nümayiş olunub.

Zaqatala rayon Heydər Əliyev Mərkəzində keçirilən "Əziz Şuşa, sən azadsan!" adlı tədbirdə Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Şəki RMİ-nin rəisi vəzifəsini müvəqqəti icra edən Tərlan Nəsibov və digərləri çıxış edib. Mərkəzin musiqi və rəqs dərnəkləri üzvlərinin və mədəniyyət işçilərinin hazırladığı konsert proqramı təqdim olunub.

***

Bərdə RMİ Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində "Qarabağın tacı Şuşa" adlı tədbir keçirilib. Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov, Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümovanın da iştirak etdiyi tədbirdə musiqi və incəsənət məktəbləri müəllimlərinin ifasında musiqilər səsləndirilib.

***

Şəmkir RMİ-nin dəstəyi, Şəmkir rayon MKS-nin təşkilatçılığı ilə "Şuşa İli" – Şuşa zəfəri" adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə məktəblilər maraqlı kompozisiyalarla çıxış ediblər.

***

Sabirabad RMİ Saatlı rayon Mədəniyyət Mərkəzinin Cəfərxan kənd Diyarşünaslıq evi və kənd tam orta məktəbin birgə təşkilatçılığı ilə "Şuşa İli" münasibətilə dərnək üzvlərinin əl işlərindən ibarət sərgi keçirilib.

Şirvan şəhər MKS-nin 3 saylı kitabxana filialı "Qarabağın tacı, Zəfərin rəmzi – Şuşa" adlı tədbir təşkil edib.

***

Biləsuvar RMİ Cəbrayıl şəhər Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə Bakı şəhəri V.Mustafazadə adına 2 nömrəli Uşaq incəsənət məktəbində "Vətənimdir, Azərbaycan" adlı konsert proqramı təşkil edilib. Tədbirdə Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayeva, millət vəkili Ceyhun Məmmədov Biləsuvar RMİ-nin rəisi Əlisultan Sadıxov və başqa qonaqlar iştirak ediblər.

***

Xaçmaz RMİ Heydər Əliyev adına Xaçmaz rayon Mədəniyyət Mərkəzində "Salam, Şuşa" adlı tədbir keçirilib. Tədbirdə vətənpərvər ruhlu mahnılar səsləndirilib.



Xaçmaz şəhər Uşaq incəsənət məktəbi Heydər Əliyev Mərkəzində "Şuşa İli"nə həsr olunmuş konsert proqramı ilə çıxış edib. Xaçmaz Rayon İcra Hakimiyyəti başçısı Elnur Rzayev və Xaçmaz RMİ-nin rəisi Vüsal Hüseynovun iştirak etdikləri tədbirdə xor kollektivinin, xoreoqrafiya və musiqi şöbələri şagirdlərinin çıxışları alqışlarla qarşılanıb.

***

Masallı RMİ Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində jurnalist-yazar Cəfər Cəfərovun ssenarisi əsasında hazırlanmış "Şuşa, ətrin duyulur" tamaşasının premyerası olub.

Cəlilabad rayon Uşaq incəsənət məktəbinin təşkilatçılığı ilə rayon Heydər Əliyev Mərkəzində "2022-ci il – "Şuşa İli" adlı tədbir keçirilib. Əvvəlcə Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov çıxış edib. Tədbir Uşaq incəsənət məktəbi müəllim və şagirdlərinin ifasında konsert proqramı ilə davam edib. Rayonun Sabirabad kənd klubunda Nizami Məmmədov adına 1 saylı tam orta məktəbin şagirdlərinin iştirakı ilə "Şuşa İli"nə həsr olunmuş viktorina təşkil edilib.

***

Ağstafa RMİ Qazax rayon E.Hüseynov adına Mərkəzi Kitabxananın Uşaq şöbəsi "Zirvədə Zəfər – Şuşa bizimdir!" adlı ədəbi kompozisiya keçirib. Tədbir iştirakçıları "Şuşa İli"nə, şəhərin görkəmli şəxsiyyətlərinə həsr olunmuş sərgilərlə tanış olublar.



Tovuz rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Tovuz nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Şuşa Qarabağın döyünən ürəyidir" mövzusunda inşa yazı müsabiqəsi keçirilib. Rayonun Düz Qırıqlı kənd Uşaq musiqi məktəbində istedadlı şagirdlərin üzə çıxarılması məqsədilə "Mədəniyyət paytaxtı Şuşa" başlığı altında məktəbdaxili müsabiqə təşkil olunub. Müsabiqədə fortepiano, saz, tar, qarmon və xanəndəlik ixtisasları üzrə şagirdlər iştirak ediblər. Rayon Mərkəzi Kitabxanası isə "Şuşanın ədəbi simaları" mövzusunda oxucu konfransı təşkil edib.

***

Gəncə RMİ-nin dəstəyi ilə F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında Kəlbəcər rayon Uşaq incəsənət məktəbinin "Şuşa İli"nə həsr olunmuş konserti keçirilib. RMİ-nin rəisi Vasif Cənnətovun da iştirak etdiyi konsertdə məktəbin xor kollektivi, xalq çalğı alətləri və aşıqlar ansamblları çıxış ediblər.

Gəncə şəhər MKS "Ruhumuzun ünvanı – Şuşa" adlı musiqili, ədəbi-bədii gecə təşkil edib. RMİ-nin rəisi belə tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıb.



Xocalı şəhər 1 nömrəli Uşaq musiqi məktəbində "Şuşa İli" – Zəfərimizin dəlili" adlı tədbir təşkil olunub. Xocalı Rayon İcra Hakimiyyəti başçısının müavini Lamiyə Qarayeva, Gəncə RMİ-nin rəisi və digər qonaqların iştirak etdiyi tədbirdə məktəbin kollektivi tərəfindən xalq və bəstəkar mahnıları səsləndirilib.

***

İsmayıllı RMİ İsmayıllı rayon MKS-nin Uşaq şöbəsində "Şuşa İli" münasibətilə keçirilən tədbirdə Ağdam rayon 30 saylı tam orta məktəbin şagirdləri şeirlər söyləyib, mahnılar səsləndiriblər.

**Hazırladı: N.Məmmədli**

# Hər cümlə – bir xəbər

Şəki RMİ Zaqatala rayon Mərkəzi Kitabxanasında görkəmli şair, maarifçi və ictimai xadim Xurşidbanu Natəvanın 190 illik yubileyi münasibətilə "İncə ruhlu zərif xanım" adlı tədbir keçirilib.

Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı, 2 saylı tam orta məktəbin şagirdlərinin iştirakı ilə Mirzə Ələkbər Sabirin 160 illik yubileyi ilə əlaqədar tədbir keçirilib.

Sumqayıt RMİ Xızı rayon Uşaq musiqi məktəbində görkəmli bəstəkar Rauf Hacıyevin 100 illiyinə həsr olunan "Anam, doğma vətənimsən, Azərbaycanım!" adlı konsert proqramı təqdim edilib.

Xızı rayon Şorabad qəsəbə Sənətkarlıq evində fəaliyyət göstərən rəsm kursunun şagirdləri Aylin Zeynallı və Fidan Babayeva "Könlüm keçir Qarabağdan" adlı respublika incəsənət festival-müsabiqəsində I və II yerə layiq görülüblər.

Zəngilan rayon Bartaz kənd Uşaq musiqi məktəbi şagirdlərinin hesabat konserti olub.

Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova və Milli Məclisin deputatı Fatma Yıldırım Bərdə rayonunun Şirvanlı kəndində yerləşən Şirvanlı hamamına baxış keçiriblər.

Ağdaş RMİ Zərdab rayon MKS-nin Mərkəzi Kitabxanasında "Ağıllıya biz" adlı intellektual oyunun final mərhələsi təşkil olunub.

İsmayıllı RMİ Ağsu rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Ağsu şəhər Mədəniyyət evində Rauf Hacıyevin 100 illiyi münasibətilə "Musiqi sənətimizin xəzinəsi" adlı gecə keçirilib.

Gəncə RMİ Zərif Qayıbov adına 5 nömrəli Uşaq musiqi məktəbində Fikrət Əmirovun 100 illik yubileyi ilə bağlı tədbir keçirilib.

Goranboy şəhər Uşaq incəsənət məktəbi şagirdlərinin hesabat konserti təşkil olunub.

# "Dərin duyğulara söykənməyən yaradıcılıq heç vaxt çox yaşaya bilməz"

## Vidadi Babanlı: "Mənimlə birgə yazmağa yeni başlayanlar az deyildi. Çox keçmədi ki, sayları azalmağa başladı, yarı yolda qaldılar..."

Həyatını ədəbiyyata həsr edən görkəmli qələm ustadı Vidadi Babanlı "Gəlin", "Bulanlıq dünya", "Müqəddəs ocaq", "Vicdan susanda", "Ömürlük cəza", "Həyat bizi sınayır", "İnsaf nənə", "Sabaha ismarıc" kimi əvəzsiz əsərləri ilə oxucularına bütöv bir xəzinə bəxş edib. 95 yaşlı yazıçı bu gün də ölkəmizin ədəbi mühitində sözünün sehri, kəlmələrinin kəsəri ilə sevilir. Biz də bu sevgi işığında qocaman ədibimizlə həmsöhbət olduq.



*– Vidadi müəllim, bu günlərdə Prezident İlham Əliyevin sərəncamına əsasən "Şərəf" ordeni ilə təltif olundunuz. Mədəniyyət naziri Anar Kərimov evinizdə qonaq oldu və ordeni sizə təqdim etdi. Düşünürəm ki, sənətinə verilən dəyər sənətkar üçün izaholunmaz hissdir.*

– Ulu öndər Heydər Əliyev ziyalılara qarşı olduqca diqqətli idi. Hətta güman etmədiyimiz məqamlarda özü bizə yaxınlaşıb qayğılarımızla maraqlanırdı. Sevinirəm ki, ümummilli liderin əsasını qoyduğu bu ənənə yaşadılır. Dövlətimiz ziyalılarımıza, ədəbiyyat və incəsənət nümayəndələrinə qayğını, hörməti əsirgəmir. Bu yüksək təltifə layiq görüldüyüm üçün dövlət başçımıza minnətdarlığımı bildirirəm. Mədəniyyət nazirinin evimə qonaq gəlib, mənə "Şöhrət" ordenini təqdim etməsi də çox alicənab addım idi. Bu həm də sənətə, mədəniyyətə yüksək dəyərin göstəricisidir.

*– Tarix boyu bir çox yaradıcı simalar doğulduqları ölkənin talelərinə təsirindən şikayətləniblər. Necə düşünürsünüz, dünyaya gəldiyiniz coğrafiya, cəmiyyət fərqli olsaydı, daha rahat ömür sürə bilərdiniz?*

– Mən Azərbaycana çox bağlıyam. Yəqin buna görədir ki, əsərlərimdə milli ruh güclüdür. Düşünürəm ki, başqa ölkədə yaşasaydım, belə yaza bilməzdim. Ən əsası isə millətimə, xalqıma bağlı insanam. "Vicdan susanda" romanından tutmuş ən kiçik həcmli hekayələrimədək hər birində xalqımızın həyatının müəyyən dövrlərini əks etdirmişəm. İstər "Ömürlük cəza", yaxud "Müqəddəs ocaq", "Mənim gizlinlərim" olsun. Hər cümləmdə azərbaycançılıq mövqeyimi bütün dəyərlərdən üstün tutmağa çalışmışam.

*– "Vicdan susanda" romanınız uzun müddət əksər evlərdə masaüstü kitaba çevrilmişdi...*

– Mən digər yazıçıların yeni əsərlərini oxumağa həmişə vaxt tapırdım. Mir Cəlalın, Süleyman Rəhimovun, Mehdi Hüseynin, ədəbiyyatımızın digər nümayəndələrinin yaradıcılığını diqqətdə saxlamışam. Ümumiyyətlə, hər dövrün öz yazıçısı var. Həmin dövrün ideologiyası sovet hakimiyyətinə tərif yağdırmaq idi. Dərin duyğulara söykənməyən yaradıcılıq heç vaxt çox yaşaya bilməz. Bəlkə buna görə də bir sıra yazıçıların əsərlərinin ömrü çox qısa oldu. O ki qaldı "Vicdan susanda" romanıma, bu əsərim yaşı 50-dən çox olsa da, bu gün də eyni sevgi ilə oxunur. Moskvada iki il ard-arda 100 min tirajla çap olunmuşdu. O vaxtlar heç bir çox rus yazıçıların əsərlərinə bu qədər maraq yox idi.

*– Amma son dövrlər kitabı əldən-ələ gəzən yazıçılarımızın sayı azalır. Səbəbini nədə görürsünüz? Xüsusən də çoxları şikayətlənir ki, tarixi Zəfərimizi tərənnüm edən keyfiyyətli əsərlər yazılmayıb.*

– Həyat təcrübəsi, ondan da önəmli fitri istedad olmalıdır. Bunların boşluğu yaradıcılığa mənfi təsir edir. Həvəslə gəlib, əliboş qayıdırlar. Mənimlə birgə də yazmağa yeni başlayanlar az deyildi. Çox keçmədi ki, sayları azalmağa başladı, yarı yolda qaldılar. Səməd Vurğunun dövründə onlarla şair vardı. İndi kimin adı yad olunur? Səməd Vurğunun! Çünki o, istedadın özü idi. Hər misrası Allah vergisi idi. Tarix boyu, ta keçmişdən bu belə olub.

*– Madam ki, tarixi Zəfərimizdən danışdıq, Qarabağın işğaldan azad olunması xəbərini necə qarşıladınız?*

– Xalqımızın ürəyində böyük dərd idi. Gözəl rayonlarımızı işğaldan azad etdik. Həm torpağı münbit, həm mədəniyyəti zəngin ərazilərimiz əsl sahiblərinə geri qayıtdı. Çox sevindim. Prezidentimizə məktub da yazdım ki, ağsaqqal yazıçı kimi alnınızdan öpürəm, bizə böyük sevinc nəsib etdiniz. Bu, həqiqətən, çox böyük hadisədir. Bərəkətli torpaqlarımız yenə canlanacaq. Xalqımızın güzəranı daha da yaxşılaşacaq.

*– Hər bir yazıçının, ümumiyyətlə, yaradıcı insanın həyatında fədakar qadın obrazı mütləq olur. Bəlkə bu haqda danışaq?*

– Mənim həyatımda ürəkdən sevdiyim cəmi bir insan olub. O da məktəbdə sinif yoldaşım idi. O qızdan sonra ürəkdən heç kimə vurulmamışam. Bəli, münasibətlərim olub, amma əsl sevgi tək və ilk olur. Səməd Vurğunun ilk məhəbbəti Dürrə xanıma olan sevgisi kimi... Mən özüm də bu məhəbbəti qələmə almışam.

*– Bəs yazıçının həyat yoldaşı ilk məhəbbətinin kölgəsində qalmır? Ümumiyyətlə, yazıçının taleyində hansı funksiyanı daşıyır?*



– Yazıçı xanımı olmaq çətindir. Gərək onun nazı ilə oynayasan, hisslərini duyasan. Xanımım həmişə mənə dəstək olub. Əlyazmalarımı makinada çap edirdi. O vaxtlar kompüter yox idi. Bəzən hətta dəfələrlə cümləni, ifadələri dəyişirdim. Hər dəfə yorulmadan yeni vərəq götürüb makinanın arxasına keçirdi.

*– Tolstoyun xanımı kimi...*

– Əlbəttə. Ədəbiyyat naminə belə fədakarlıq edən qadınlar çox olub və var.

*– Əcnəbi yazıçıların əsərlərini oxuyurdunuz? Sovet dövründə xarici yazıçıların əsərləri başqa dünyanın təsviri demək idi...*

– Əlbəttə, oxuyurdum. Əsasən fransız ədəbiyyatı ilə maraqlanırdım. Balzak, Hüqo, Mopassanın bütün əsərlərini oxuyurdum. Fərq etmir, fransız, alman, ingilis, amerikalı yazıçıların yaradıcılığına həmişə bələd olmaq istəmişəm. İndiki gənclərdə də məni bu cəhət narahat edir. Mütaliəyə meyilli böyümürlər. Birinin təsvir etdiyi hadisələrin, başqasının qurduğu süjet xəttinin gedişatından nələrsə öyrənmək istəmirlər. Mən Tolstoy, Dostoyevski kimi yazıçıların əsərlərindən bəhrələnərək, öz dəst-xəttimi tapmışam. Ona görə mütaliədən çəkinmək lazım deyil.

*– İstedadınızdan qorxub, yolunuzu kəsənlər çox olub?*

– İrəli getmək üçün heç kimin önündə əyilməmişəm. Qürurum buna heç vaxt imkan verməyib. Bəlkə buna görədir ki, mənə qarşı haqsızlıq çox olub. Bəzilərindən bu gün də incikliyim var. Amma heç nəyə baxmayaraq sənətimlə məşğul olmuşam. 93 yaşımda "Sabaha ismarıc" kitabımı tamamlamışam. Səhhətim əl verməsə də, diktə etmişəm, ailə üzvlərim yazıya köçürdüb. Mən ömrüm boyu sənətlə, sözlə qidalanmışam. Qalmaqaldan, davadan, yaltaq, ikiüzlü adamlardan uzaq durmağa çalışmışam.

*– Hər yazıçının yaradıcılığı üçün özünəməxsus münbit şəraiti olur. Hətta bəzən deyirlər ki, xoşbəxt yazıçının, şairin əsəri oxucunun ürəyinə toxuna bilməz.*

– Bəzən ideya qəfildən gələ bilər. Xatırlayıram, qeydlər edirdim ki, unutmayım. Adətən gecələr işləyirdim. Bəzən o səssizlikdə sübhə qədər yazırdım. Həmin saatlarda özünlə təkbətək qalırsan. Fikrini yayındıran da olmur. Yazıçının həyat müşahidəsi güclü, gözü iti olmalıdır. İnsanları tanımağı bacarmalıdır. Pisi yaxşıdan ayırd etməlidir. Rastlaşdığın insanların hərəsindən bir cəhəti götürüb ya müsbət, ya da mənfi obraz yarada bilməlisən. Həyat biliyi güclü olmalıdır. "Vicdan susanda" romanını yazanda bir il kimyaçılarla birgə çalışmışdım. Yaxud "Həyat bizi sınayır" romanını ərsəyə gətirmək üçün Sumqayıtdakı fəhlə yataqxanalarının birində tərbiyəçi müəllim işləməyə başladım. Əmin olduğum bir şey var ki, həyatı dərindən mənimsəməsən, əsərlərin oxucunun ürəyinə yol tapa bilməyəcək...

**Söhbətləşdi: Leyla Sarabi**

# "Mədəni gənclik" layihəsinin növbəti ünvanı Akademik Musiqili Teatr olub





Gənclərin incəsənətə marağının artırılması məqsədilə Mədəniyyət Nazirliyinin həyata keçirdiyi "Mədəni gənclik" layihəsinin növbəti ünvanı Azərbaycan Dövlət Akademik Musiqili Teatrı olub. Mayın 24-də layihədə iştirak edən tələbələr teatrda "Paris Notr-Dama ithaf" tamaşasına baxıblar.

Tamaşadan əvvəl Mədəniyyət Nazirliyinin əməkdaşı Cəfər Həsənov layihənin əhəmiyyəti barədə danışıb. Qeyd edib ki, layihə çərçivəsində Bakı Dövlət Universitetinin tələbələri paytaxtın müxtəlif mədəniyyət ocaqlarında tamaşalar və konsertlər izləyə biləcəklər. Həmçinin kollektivlə görüşəcək, sorğuda iştirak edərək ən çox bəyəndikləri teatrı, tamaşanı və s. qiymətləndirmək imkanı qazanacaqlar.

Sonra fransız yazıçısı Viktor Hüqonun məşhur romanının motivləri əsasında rejissor Samir Qulamovun səhnələşdirdiyi və quruluş verdiyi "Paris Notr-Dama ithaf" tamaşası nümayiş olunub. Tamaşanın ideya müəllifi və bədii rəhbəri Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Əliqismət Lalayevdir.

Səhnə əsəri tarixi memarlıq incisi, Avropanın əzəmətli simvollarından biri olan Paris Notr-Dam kilsəsində 2019-cu il aprelin 15-də baş vermiş yanğın hadisəsinə ithaf olunub.

Tamaşada "Notre-Dame de Paris" müziklinin müəllifi Riçard Konçiante, məşhur bəstəkarlar Rixard Ştraus, Tomaso Albinoni, Jorj Bize, Samuel Barberin əsərlərindən istifadə edilib. Quruluşçu dirijor və orkestrləşdirmənin müəllifi Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu baletmeysterlər Əməkdar artistlər Zakir və Leyla Ağayevlər, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu rəssamı Vüsal Rəhim, musiqi mətnlərinin müəllifi şair İlqar Fəhmidir.

Rolları Əməkdar artist Nadir Xasiyev, aktyorlar Nicat Əli, Mehriban Zaliyeva, Emin Zeynallı, Hüseyn Əlili, Səmədzadə Xasiyev, Şaban Cəfərov, Murad Əliyev, Ofeliya Məmmədova, Fərid Rzayev, Zaur Əliyev, Əli Kərimov, Cəbrayıl Cəbrayılov, həmçinin xor və balet truppasının artistləri ifa ediblər.

Qeyd edək ki, "Mədəni gənclik" layihəsi çərçivəsində Akademik Musiqili Teatrda ikinci tamaşa iyunun 7-də Üzeyir Hacıbəylinin "O olmasın, bu olsun" musiqili komediyası olacaq.

# "Azərbaycanfilm"in nəzdində Ekspert şurası yaradılıb

Dövlət dəstəyi ilə bədii, sənədli və animasiya filmlərinin, digər audiovizual əsərlərin istehsalı, eləcə də ssenari portfelinin formalaşdırılması üçün müsabiqələrin təşkilini həyata keçirmək məqsədilə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyası nəzdində Ekspert şurası yaradılıb.

Kinostudiyadan bildirilib ki, kinoşünas, kinorejissor, Əməkdar incəsənət xadimi Ayaz Salayevin rəhbərlik edəcəyi Şuranın üzvləri Xalq artisti Mehriban Zəki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Kinoşünaslıq və ekran dramaturgiyası kafedrasının müdiri, dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirli, həmin kafedranın müəllimi, sənətşünas, kino redaktoru Nadir Bədəlov, dramaturq, ssenarist İsmayıl İmandır. Ekspert şurasının məsul katibi Leyla Vəzirzadədir.

Şura üzvlərinin səlahiyyət müddəti cari ilin sonuna qədərdir. Bu müddətdə kinostudiyada həyata keçiriləcək müsabiqələr Ekspert şurası üzvlərinin qərarı ilə qiymətləndiriləcək.

# Xalq yazıçısı Kamal Abdulla gənclərlə görüşüb

Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə Xalq yazıçısı, akademik, Azərbaycan Dillər Universitetinin (ADU) rektoru Kamal Abdullanın gənclərlə görüşü keçirilib. Görüş Dünya Gənc Türk Yazarlar İctimai Birliyi tərəfindən "Əbədi sevgi – Vətən" layihəsi çərçivəsində reallaşıb.



Xalq yazıçısı elmi və ədəbi yaradıcılığı, sevdiyi müəlliflər, mütaliə, "Kitabi-Dədə Qorqud" dastanı haqqında gənclərin suallarını cavablandırıb, mədəniyyətşünaslıq, mifologiya və mifolinqvistika haqqında fikirlərini bölüşüb. Kamal Abdulla rəhbərlik etdiyi universitetin və Azərbaycan Yaradıcılıq Fondunun uğurlu layihəsi olan Yaradıcılıq fakültəsi haqqında da söhbət açıb.

Həmçinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı və Prezident Kitabxanası, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və ADU-nun birgə layihəsi əsasında, tarixçi alimlər, toponimlər, dilçilik və xəritəçəkmə üzrə mütəxəssislər cəlb edilməklə nəşr olunan "Həqiqətin onomastikası" kitabı haqqında məlumat verilib. Qeyd olunub ki, gərgin tədqiqat işlərinin bəhrəsi olan bu kitab erməni vandalizminin və erməni saxtakarlığının ən bariz nümunələrindən birinə – tarixi Azərbaycan torpaqlarında, indiki Ermənistan Respublikası ərazisində əsrlər boyu yaşamış azərbaycanlıların izlərinə, bizə məxsus 1600-ə yaxın toponim, hidronim və oronimlərin kütləvi şəkildə dəyişdirilməsi və saxtalaşdırılması, bir çox yaşayış məntəqələrinin yer üzündən silinməsi faktlarına həsr olunub.

Yazıçı görüşün sonunda 2020-ci ildə Türkiyədə çap olunan "Mifologiya elçisi Kamal Abdulla ərməğanı" kitabını gənclərə hədiyyə edib.

# ADA Universitetində "İtalyan dizayn günü"

Mayın 24-də ADA Universitetində İtaliyanın Azərbaycandakı Səfirliyi, İtaliya Ticarət Agentliyi və ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə "İtalyan dizayn günü" mövzusunda tədbir və sərgi keçirilib.




Universitetin rektoru, səfir Hafiz Paşayev və İtaliyanın ölkəmizdəki səfiri Klaudio Taffuri qonaqları salamlayıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ildə İtaliyaya dövlət səfəri zamanı mühüm razılaşmaların əldə edildiyini deyən rektor ADA-nın bazasında fəaliyyət göstərəcək İtaliya-Azərbaycan Universitetinin gələcək fəaliyyətindən bəhs edib. Bildirilib ki, sözügedən universitetin təsis edilməsinə İtaliyanın beş aparıcı ali təhsil ocağı – Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti və Romanın Sapienza Universiteti cəlb olunub və bu əməkdaşlıq Azərbaycanda italyan dizayn ənənəsinin daha da geniş yayılmasına fayda verəcək.

Səfir Klaudio Taffuri vurğulayıb ki, İtaliya zəngin mədəni keçmişindən yararlanaraq dizaynın gələcək istiqamətinin formalaşmasına töhfə verir.

Tanınmış italyan memar Mikel de Lucci dizaynın gələcəyi, konseptual vizyonu barədə məlumat verib, şəhərsalmada "Earth Stations" yanaşması ilə bağlı təqdimat edib. "Maire Tecnimont S.p.A." şirkətinin vitse-prezidenti Cianni Bardazzi "Davamlı gələcək üçün dizayn və yeni texnologiyalar" mövzusunda təqdimatla çıxış edib.

ADA Universitetinin prorektoru, universitetin nəzdində İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən müzakirələrdə Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, energetika nazirinin müavini Elnur Soltanov, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov çıxış ediblər.

Anar Quliyev işğaldan azad edilmiş ərazilərin Ümumi planı üzərində işlərin yekunlaşdığını, onun əsasında hazırda şəhərlər üzrə Baş planların, müfəssəl planların müxtəlif hazırlıq mərhələlərində olduğunu bildirib. O, aparılan bərpa-quruculuq prosesində ən qabaqcıl texnologiya və müasir təcrübənin tətbiq edildiyini, tarixi-mədəni irsin qorunmasında İtaliya şirkətlərindən gələn təkliflərin də yüksək qiymətləndirildiyini və bu istiqamətdə geniş əməkdaşlıq imkanlarının olduğunu qeyd edib.

Tədbir italyan şirkətlərinin dizayn etdiyi layihələrin nümayişi ilə başa çatıb.

№40 (1913)
27 may 2022
www.medeniyyet.az

## “Diplomunu şəhid olandan sonra gətirdilər...”

Vətən müharibəsində əsir yurd yerlərimizin azadlığı uğrunda canını fəda edən igid oğullarımızın qəhrəmanlığı heç vaxt unudulmayacaq. 19 yaşında şəhidlik zirvəsinə ucalan igidlərimizdən biri – Məhəmməd Kərimlini tanıyaq.



Məhəmməd Məzahim oğlu Kərimli 2000-ci il dekabrın 16-da Neftçala rayonunda anadan olub. İlk təhsilini Neftçala rayon Elton Həbibov adına 4 saylı tam orta məktəbində alıb. Məhəmməd uşaqlıqdan idmanın bir sıra növlərinə maraq göstərib. O, şahmat, güləş, boks və basketbol ilə məşğul olub. 2016-cı ildə Bakı Qida Sənaye Kollecinin Ət və süd məhsullarının texnologiyası fakültəsinə qəbul olunur. 2020-ci ildə təhsilini bitirərək hərbi xidmətə yollanır. Xüsusi Təyinatlı Qüvvələrə (XTQ) seçilərək xidmətini kəşfiyyatçı kimi davam etdirir.

2020-ci ilin 27 sentyabrı – Azərbaycan tarixinin yeni, şanlı səhifəsinin yazıldığı gün. Məhəmməd də müharibənin ilk anlarında düşməni cəzalandırmaq üçün, ana yurdun azadlığı uğrunda döyüşlərə qatılır. O, Kəlbəcər, Füzuli, Xocavənd və Murovdağ uğrunda döyüşlərdə öz şücaəti ilə seçilir. Məhəmməd sentyabrın 30-da Murovdağ istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olur.

Şəhidin anası Gülşən Kərimova deyir ki, Məhəmməd müharibəyə getməsi barədə ailəsinə xəbər verməyib: “Həyatı boyunca ailəsinin ona görə narahat olmasını istəməzdi. Biz ancaq şəhidlik xəbəri gələndə onun müharibədə iştirak etdiyini öyrənmişik. Məhəmməd çox zəhmətkeş oğul idi. Kollecdə oxuduğu müddətdə bizə çətinlik olmaması üçün dərsdən sonra işləyirdi. Lakin diplomunu almamış hərbi xidmətə yollandı. Məhəmməd şəhid olacağını sanki hiss edirdi. Atasına deyirdi ki, mən hərbi xidmətə gedəndə sonra gedib diplomumu götürərsən. Lakin atası Məhəmmədə “Sən get, sağ-salamat gəl, özün diplomunu alarsan” deyirdi. Diplomunu kollec müəllimləri Məhəmməd şəhid olandan sonra gətirdilər... Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Məhəmməd Kərimli 2020-ci il oktyabrın 6-da Neftçala rayon qəbiristanlığında torpağa tapşırılıb. Ölkə başçısının sərəncamları ilə ölümündən sonra “Azərbaycan Bayrağı” ordeni, “Cəsur döyüşçü”, “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” medalları, həmçinin Azərbaycan Respublikasının Prezidenti adından müdafiə nazirinin müvafiq sərəncamı ilə “Hərbi xidmətdə fərqlənməyə görə” 3-cü dərəcəli medalı ilə təltif edilib.

Ruhu şad olsun.

**Nurəddin**

## Qəlbi Vətənlə döyünürdü...

Vətən müharibəsində tarix yazan, doğulub boya-başa çatdığı Lənkəran elinin qürur, iftixar yerinə çevrilən İqbal Bayramovun 43 illik ömür yolu başdan-başa saflıq dünyasına bənzəyir. Onun həyat fəlsəfəsində yalnız gözəl dünya naminə qurub-yaratmaq, hər bir işdə yurduna gərək olmaq dururdu. Bütün yaxşılıqlar, nəcib əməllər, insanlara təmənnasız münasibət bu ləyaqətli Vətən övladının iç dünyasından qaynaqlanırdı. Elə İkinci Qarabağ savaşında həyatını fəda etməsi canından artıq sevdiyi Vətənin yaşaması üçün idi...



İqbal Əhmədağa oğlu Bayramov 1977-ci il iyulun 4-də Lənkəranın Hirkan qəsəbəsində dünyaya göz açıb. Qəsəbədə orta təhsilini başa vurub 1994-cü ildə Azərbaycan Dövlət Neft Akademiyasına (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olur. Tələbəlik illərində oxuyub öyrənməkdən yorulmur. Gözəl əxlaqı, həyata sağlam baxışı, insanlığa sevgisi müəllim və tələbələr tərəfindən rəğbətlə qarşılanır, ona hörmət qazandırır.

Qarabağın Ermənistan tərəfindən əsarətdə saxlanılması İqbalın ən yararlı yeri idi. Ali təhsildən sonra, 2001-ci ildə ordu sıralarına yollanır. Leytenant rütbəsində Ağdam-Tərtər istiqamətində “N” saylı hərbi hissədə tağım komandiri kimi xidmət edir. Əsgərlərinə böyük qayğı göstərir, onların hörmətini qazanır.

İqbal baş leytenant rütbəsi ilə ehtiyata buraxılır. Üç il mülki həyatda müxtəlif işlərdə çalışır. Təbii ki, günləri rahat, gözəl keçsə də, düşmənin ədalətsiz hərəkətlərinə son qoymaqdan ötrü həyatını yenidən hərbiyə bağlayır. Anamız Azərbaycanın qeyrətli oğlu kimi sinəsini yanar od edib düşmənin bağrını çatladan günə hazırlaşır. Mayor rütbəsinə yüksəlir, nümunəvi xidmətinə görə sinəsini medallar bəzəyir.

Vətən müharibəsi başlanan gündən mayor İqbal Bayramov mənfur düşmənə nifrət hissi ilə döyüşə atılır. Sanki düşmənin kökünü kəsməkdə Vətən sevgisi ona hər savaşda yeni qüvvə verir. Cəsarətlə döyüşür, öndə gedir, əsgərlərini hücuma səsləyir. Cəbrayılda da düşmənə od qoyur, onların çoxlu canlı qüvvəsini məhv edir, texnikasını sıradan çıxardır. Bundan əlavə, dəfələrlə döyüş yoldaşlarını mühasirədən qurtarır. Oktyabrın 5-də düşmən gülləsi qəhrəman mayorun ömrünə son qoyur.

İqbal Bayramov ömrünü Vətəni üçün yaşadı. Dövlət başçısının müvafiq sərəncamları ilə ölümündən sonra “Vətən uğrunda” və “İgidliyə görə” medallarına layiq görüldü.

Bu gün bütün Lənkəran camaatı öz qəhrəman oğlu ilə fəxr edir, onun şərəfli ömür yolunu özlərinə örnək bilirlər. Allah rəhmət eləsin.

**Zəfər Orucoğlu**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Vətənə və xalqa sonsuz sevgi örnəyi

“Ömür vəfa etsəydi, sümüklərimi də xalqımın yolunda qoyardım...”

**Mirzə Ələkbər Sabir – 160**

Bu il anadan olmasının 160 illiyini qeyd etdiyimiz Mirzə Ələkbər Sabir yubileydən-yubileyə, təvəllüd və vəfat günlərində xatırlanacaq şəxsiyyətlərdən deyil! Xalqın şairi əbədiyaşar əsərləri ilə hər halımızda, hər məqamda bizimlədir! ”Mənalar aləmi“ndə əbədi diri şairin ”səs“ini batıra, söz-fikir karvanını dayandıra biləcək bir qüvvə yoxdur!

Əgər bu gün də “Oxutmuram, əl çəkin!”, “Öylə zəhləm gedir, Allah da bilir millətdən”, “Mən gözləmərəm buğda çıxar, ver bəbəyindən”... deyənlərimiz, ana dilimizdə danışmağa “ərinən”lərimiz varsa, Sabiri unutmaq olarmı?!

Mirzə Ələkbər Sabir (1862-1911) şairlər yurdu Şamaxıda dünyaya göz açmışdı. Seyid Əzim Şirvani kimi söz ustadı və maarif xadimi onun müəllimi, piri olmuşdu. İlk qələm təcrübələrini də elə müəlliminin yanında ortaya çıxarmış, ustadının tapşırıq-tövsiyəsilə fars dilindən tərcümələr etməyə, imza, təxəllüs kimi Sabir olmağa başlamışdı. Bu başlanğıc ədəbi-ictimai mühitdə çox başları ağrıdacaq, xalqının başağrılarına məlhəm olacaqdı...

Bəs təbi aşıb-daşan şair nədən və necə yazmalı idi? Sabir satirayla “silahlanmamışdan” əvvəl, cəmiyyətin köklü problemlərindən tam xəbərdar olmamışdan “Hansı bir müşküldür ki, səbr ilə asan olmasın” düşüncəsində ola, “qəmi-hicranə dözə” bilərdi. Lakin millətinin işıqlı, etibarlı gələcəyi məsələsində səbir və dözümə yer yox idi. Xalqın yaraları üçün qəzəliyyat məlhəm ola bilməzdi. Nişangahı mövhumata döndərməyin, yatmışları, əfsanə və rəvayətlərə qapılmışları silkələyib oyatmağın vaxtı çoxdan çatmışdı.

Bir sıra ədəbiyyatşünaslar və şairin müasirləri Mirzə Ələkbər Tahirzadənin “Sabir” olmasında “Molla Nəsrəddin” dərgisinin xüsusi rol oynadığını söyləyiblər. Görkəmli yazıçı-dramaturq, şairin yaxın dostlarından Əbdürrəhim bəy Haqverdiyev bu barədə yazırdı: “Sabirin təbinə, qafiyəpərdazlığına, bədahətən şeir söyləməsinə heç bir söz olmazdı. Sabir, həqiqətən, şeirdə böyük məharət yetirmiş bir şair idi. Sabir “Molla Nəsrəddin”dən çox qabaq şeirlər yazardı. Nəhayət, Sabiri “Sabir” edən “Molla Nəsrəddin” oldu. Təb Sabirin idi, qafiyəpərdazlıq Sabirin idi, istedadi-şeriyyə Sabirin idi, fəqət mövzu verən “Molla Nəsrəddin” və Mirzə Cəlil idi”.

Həqiqətən də, Mirzə Cəlil və “Molla Nəsrəddin” Sabirə tənqidi realizmin, satira yolunun qapısını açmışdı. Əgər şairin yolu mətbuatdan, xüsusilə bu dərgidən düşməsəydi, bəlkə də qəzəlxan, mərsiyəxanlıqdan çox da uzağa gedə bilməyəcəkdi. Bu gedişlə Sabir fövqəladə təbi ilə mərsiyə ustaları Əbülhəsən Raci, Qumri Dərbəndi, Molla Hüseyn Dəxil və başqalarının sırasında yer alacaq, ildə vur-tut 40 gün yada salınacaqdı. Bir halda ki, cəmiyyəti zülmətdə saxlayan minillik problemlər artıq səhnədən insanların birbaşa üzünə deyilirdisə, bülbülün əfğanı, gözəlin naz-qəmzəsi kimi bərbəzək, mürgülədici poetik həblər effektiv ola bilməzdi. Xalqın dərdlərinə əlac etmək yolunu tutan Sabir yaradıcılıq yönünü dəyişdirməliydi. Amma etiraf etməliyik ki, şairin növhələri də bədii vüsətinə görə müəllifin poetika kəhkəşanının miqyası haqqında dolğun təsəvvür yaratmaq baxımından diqqətəlayiq nümunələrdir. Yəni o, hansı vəzndə, hansı janrda yazmasından asılı olmayaraq, özünəməxsusdur, Sabiranədir!

**Haşiyə.** Mərhum şair-qəzəlxan, tədqiqatçı Ələmdar Mahir (1950-2014) Sabirlə bağlı danışdığı bir əhvalatda bildirirdi ki, İmam Hüseynin vaxtsız vəfat edən oğlu Əli Əkbərə qəlbən bağlı olan bir nəfər Sabirlə şərik qarpız xırı (bostan) əkir. Bol məhsul yetişir. Sabir şərikinə deyir ki, Əli Əkbər haqqında bir mərsiyə yazsam, bu məhsulu mənimlə necə bölərsən? Kişi bildirir ki, üç hissəsi sənin, bir hissəsi mənim. İki gündən sonra Sabir “Baxdı çün Əkbərinin nizədə Leyla üzünə...” misrası ilə başlayan məşhur mərsiyəni yazıb gətirir. Ortağı deyir ki, mən ədəbiyyatçı deyiləm axı, bilmirəm bu mərsiyə xırın üç hissəsinə dəyər, yoxsa dəyməz. Razılaşıb şeiri Seyid Əzim Şirvaniyə göndərirlər. Bir neçə gündən sonra Seyid Əzimdən cavab gəlir. Bəlli olur ki, şair Sabirə bir ağ vərəq və lələk göndərib. Bunu görən şəriklər fikrə gedirlər. Şair deyir ki, Seyid Əzim boş vərəq və lələklə bundan sonra bir daha növhə yazmayacağını, bu işi mənim ixtiyarıma buraxdığını bildirir...

***

Sabirin 1903-cü ildə “Şərqi-Rus” qəzeti vasitəsilə böyük mətbuata gəlişi, sonra “Həyat” qəzetində və nəhayət, “Molla Nəsrəddin”də çıxış etməsi onun yaradıcılıq istiqamətini köklü şəkildə dəyişməsi ilə nəticələndi. “Həyat” qəzetinin 1906-cı il 10 fevral sayında “M.Möhtəmil” imzası ilə dərc olunan “Bir məclisdə on iki kişinin söhbəti” satirası şairin yeni yaradıcılıq istiqamətinin məramnaməsi, “Hophopnamə”-“Sabirnamə”sinin proloqu idi. “Sabir öz xalqını təhqir edib” (?!) düşüncəsində olanların (təəssüf ki, bunların arasında elm-savad sahibləri də var) yaddaşını təzələmək üçün sözügedən şeiri ixtisar etmədən veririk:



> “Şeir odur ki, mövzusu həyatdan götürülüb, həm də xalqın ruhuna uyğun yazılsın. Beş gün, üç gün ömür eyləyib yaşayan şeirlərə şeir deyilməz. Xalqın oxumadığı, əzbərləmədiyi şeir, şeir deyildir. Elin ruhundan, ürəyindən qopmayan şeirlər xalqın ruhunda heç bir zaman həyəcan əmələ gətirə bilməz...”.

Vəkil
*Həqsizə həqli deyib, bir çox günaha batmışam.*

Həkim
*Dərdi təşxis etməyib, qövm-əqrəba ağlatmışam.*

Tacir
*Mən həlal ilə həramı bir-birinə qatmışam.*

Rövzəxan
*Ümmətin pulun alıb, mən gözlərin islatmışam.*

Dərviş
*Nerdə bulsam soq açıb,*
*min-min yalan söz satmışam.*

Sofi
*Ruzü-şəb həq-həq deyib,*
*mən hər kəsi oynatmışam.*

Molla
*Gündə bir fitva verib, məxluqu çox aldatmışam.*

Elm
*Qəti-ümmid etmişəm, yeksər bu qövmi atmışam.*

Cəhl
*Ortada kef eyləyib, mən həm mərामə çatmışam.*

Şair
*Bülbülə, eşqə, gülə dair yalan fırlatmışam.*

Əvam
*Anlamam hərgiz, cəhalət bəstərində yatmışam.*

Qəzetçi
*Mən cəridəm dolmaq üçün mətləbi uzatmışam.*

***

Bəli, Sabir xalqın bədxahlarına qarşı çox amansız idi. Onun yaradıcılığının bütöv mənzərəsini göz önünə gətirəndə şairin bu mövqeyindən heç bir halda geri çəkilmədiyinə şahid oluruq. Yalançı mollaların onun qətlinə fərman verdiklərini (Balaxanı məktəbində ona atəş açılmışdı və şair təsadüfən sağ qalmışdı) bilsə də, xalqın malına göz dikən acgöz məmurların hədəfinə çevrilsə də, haqqın, haqlının yanında olduğu üçün zərrəcə bədgüman deyildi. Ümumiyyətlə, şair cəmiyyətin dərdlərinə təhsildən, özünüdərkdən savayı çarə olacaq ikinci bir vasitə görmürdü. Onun məktəblə, elmlə bağlı çağırışları mürgülü kütlənin daha dərin yuxuya dalmasını arzulayan millət qənimlərinin yuxusuna haram qatırdı. Sabir cənub küləyinin gətirdiyi, din pərdəsinə bürünmüş, Kərbəla hadisələri fonunda sadə camaatın duyğularını əsir alan xurafatın, “kim daha çox göz yaşı tökdürə bilər” deyə yarışa girənlərin qarşısında mətin dayanmışdı. Din işbazlarının əməllərinə qarşı həmişə küləkdən ayıq olan şair dayanmadan satira mərmiləri saçırdı.

Saf niyyətli ədibə qarşı hücumların intensiv xarakter aldığı bir dönəmdə şair şirvanlıların timsalında bütöv Azərbaycan xalqına müraciət olaraq “Əşhədü billahi-əliyyül-əzim” adlı şeirini qələmə almışdı. Müəllif burada özünün “sahibi-iman”, “köhnə müsəlman”, “haqsevən insan”, nəhayət, “qaili-Quran” olduğunu qaragüruhçuların diqqətinə çatdırırdı. Əslində, Sabir bu şeirlə mübarizəsinin əsas hədəfini bir daha bəyan edirdi.

Sabir maarif təşnəsiydi. Elmdən, təhsildən qorxanlar, qız uşaqları ilə “məktəb” kəlməsini bir arada təsəvvürə belə gətirmək istəməyənlər şairin qrotesk qəlpələrinə mütləq tuş gəlməliydi. Biçarə Vətənin qaranlığa məhkum övladlarının yolunu aydınlatmağı, “saqqalı uşaq”ların, “həzrət Abbasa” namə göndərənlərin, “kafirlərin” düzəltdiyi qatara minməyi haram bilənlərin, daha kimlərin, kimlərin şüurunu bürümüş qatı qara dumanı dağıtmalıydı.

Şair “Ey fələk, zülmün əyandır” sözləri ilə başlayan məşhur bəhri-təvilində (ərəbcədən tərcümədə “sonsuz dərya” mənasındadır, bir növ əruz vəznində olan sərbəst şeir) yazırdı: “...qız balalar məktəbə hazır olalar, elmdə mahir olalar, fəzldə bahir olalar, başdan-ayağə geyələr don, gedələr məktəbə on-on, dutalar şiveyi-bidət, bilələr cümlə kitabət...”. Bu fikirlər maarifpərvər şairin arzuladığı, can atdığı, uğrunda yorulub usanmadan mübarizə apardığı mənzərə idi. Müəllif bu bəhri-təvildə guya qızlar elmə, biliyə yiyələndikdən sonra ismət və iffətlərinin itib-batacağını bəhanə edənləri hədəfə alırdı...

***

Sabirin gözəl poetik zövqü və dərin ədəbiyyat bilgisi olub. Əsərlərinin dil-üslub xüsusiyyətləri, toxunduğu mövzulara uyğun xalq yaradıcılığı nümunələrindən, eləcə də müsəlman Şərqi folklorunun obraz və hadisələrindən sənətkarlıqla istifadəsi onun mütaliə zənginliyindən xəbər verir.

Ədəbiyyatşünas, şair Salman Mümtaza verdiyi müsahibəsində biz Sabirin divan ədəbiyyatı, əruz şeiri haqqında əsl ədəbiyyat bilicisi məntiqinə şahid oluruq. O, hələ də əruz vəzninə müraciət etməsini belə əsaslandırırdı: “Məncə, yeni fikirləri və yeni mövzuları mütləq əski formada və əruz bəhrlərində vermək və yazmaq lazım, həm də vacibdir. Bunları birdən-birə dəyişib oxucunu ədəbiyyatdan yadırğatmaq və soyutmaq olmaz. İri-iri toplar ilə hücuma keçən düşmənin qabağına sədəf dəstəkli və qızıl suyu ilə yazılı gümüşü xəncəl ilə çıxmaq ağılsızlıqdır. Əruz bizim deyildir. Bunu hamı bilir. Lakin 13 əsrdir ədəbiyyatımızı mühasirəyə almışdır. Bu mühasirə də böyük-böyük ustadların planı, nəqşəsi və əlləri ilə olmuşdur. Bu mühasirəni yarıb ədəbiyyatımızı xilas etmək yenə yuxarıdakı ustadlar kimi böyük ustadların əlləri ilə mümkün olacaqdır”.

Şairin həqiqi şeir haqqında fikirləri də maraqlıdır: “Şeir odur ki, mövzusu həyatdan götürülüb, özü də açıq və aydın yazılsın, həm də xalqın ruhuna uyğun yazılsın. Beş gün, üç gün ömür eyləyib yaşayan şeirlərə şeir deyilməz. Xalqın oxumadığı, əzbərləmədiyi şeir, şeir deyildir. Çünki onların əsası və bünövrəsi yoxdur, onlar hübab (yağış yağanda su üzünə çıxan qabarcıq, köpük) gəmisi kimi tez çıxıb, tez də batırlar. Elin ruhundan, ürəyindən qopmayan şeirlər xalqın ruhunda heç bir zaman həyəcan əmələ gətirə bilməz”.

Bu yerdə qeyd edək ki, Sabir qəzəl, növhə və satiralarında ərəb-fars tərkiblərindən gen-bol istifadə edib. Ancaq müəllifin, xüsusilə, satirik şeirlərində tənqid hədəfinin aydınlığı, poetik dilin bənzərsizliyi, ən əsası isə, şairə olan böyük ümumxalq sevgisi bu izafətlərin çətinliyini aradan qaldırır, bədii nümunələr rahatlıqla qəlblərə yol tapır. İllər öncə Məhəmməd Füzulinin “Eşqdən canımda bir pünhan mərəz var, ey həkim” mətləli qəzəli ilə Sabirin “İstəsən könlüm kimi zülfün pərişan olmasın” misrası ilə başlayan qəzəlinin müqayisəli linqvistik təhlilini aparmışdıq. Məlum olmuşdu ki, aralarında üç əsrdən çox zaman fərqi olsa da, Sabirin qəzəlində ərəb, fars qaynaqlı sözlərin sayı sələfininkindən daha çoxdur...

Ancaq, gəlin, şairin uşaqlar üçün qələmə aldığı, hər birimizin yaddaşına əbədi yazılan şeirlərinə diqqət yetirək. Dağ döşündən axan ayna gözlü bulaqların suyu kimi dumduru, aydın. Bu şeirləri müəllifin Vətən və xalq sevgisinin parlaq təzahürü hesab edirik. Vətənin fidan balalarını sevməyən necə xalq sevgisindən danışa bilər! Bu bədii nümunələri ancaq ana laylası ilə müqayisə etmək olar. Sabirin uşaq şeirləri ana təmənnasızlığı kimi dəyərlidir, əzizdir.

*Gəl, gəl, a yaz günləri!*
*İlin əziz günləri!*
*Dağda ərit qarları,*
*Bağda ərit qarları...*

***

*...Sən nə yamansan, a buz!*
*Adam yıxansan, a buz!*
*Az qalıb ömrün sənin,*
*Yaz gələr, artar qəmin:*
*Əriyib suya dönərsən,*
*Axıb çaya gedərsən.*

Təəssüf ki, bu qədər təbli, yurdsevər, fədakar şairin ömrü yaz qarı kimi oldu – 49 il. Onun da 30 ilə yaxını qaranlıq dünyalara işıq vermək üçün mübarizə ilə dolu. Ustad Füzuli demişkən, “dərd çox, həmdərd yox, düşmən qəvi...”. Sanki olacaqları öncədən görüb yazmışdı:

*Sabira, qərq edər axır səni bu seyli-bəla.*
*Olma qafil belə kim, dideyi-giryanın var.*

Yəni bəla seli axırda səni qərq eləsə də, narahat olma. Çünki dalınca neçə-neçə ağlar göz qoyub gedirsən...

Biz Sabiri də Vətən fədailərimizdən hesab edirik. Teatr tənqidçisi, ədəbiyyatşünas Hacı İbrahim Qasımov ömrünün son günlərini yaşayan şairə baş çəkəndə Sabir demişdi: “Mən vücudumda olan ətimi xalqımın yolunda çürütdüm. Əgər ömür vəfa etsəydi, sümüklərimi də xalqımın yolunda qoyardım...”.

Xalq şairinin əziz ruhuna sonsuz ehtiramla

**Fariz Yunisli**

# Burdan min atlı keçdi...




Əməkdar incəsənət xadimi, şair-dramaturq Hidayət Orucovun "Burdan min atlı keçdi..." əsərinə C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrı tərəfindən ilk dəfə 2014-cü ildə səhnə həyatı verilib və premyera həmin il dekabrın 2-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında təqdim olunub. Ötən müddətdə kollektiv ikihissəli xronoloji tarixi dramla müxtəlif səhnələrdə çıxış edib. Tamaşaya Sumqayıt Dövlət Musiqili Dram Teatrının baş rejissoru, Xalq artisti Firudin Məhərrəmov quruluş verib.

Hidayətin əsərlərinin tamaşaçı tərəfindən rəğbətlə qarşılanmasının əsas səbəbi dramaturgiyasının həqiqi hadisələrə söykənməsi, süjet xəttinin sadəliyi və insan faktorunun zənginliyidir. Əsərdə baş verən hadisələrin birbaşa şahidi olan dramaturq erməni şovinistlərinin zaman məfhumunu dəyərləndirərək, azərbaycanlılara və bütövlükdə türklərə qarşı apardıqları iyrənc siyasi "mübarizə"sini əks etdirir. Müəllifin əsərin ilk səhifəsində qeyd etdiyi "Bu kitaba yenidən qayıtmaq məqsədim Qərbi Azərbaycanda təxminən 40 il müddətində gedən prosesləri, lap başlıcası – 18 ildə gördüklərimi, duyduqlarımı qələmə almaq, oxucuya həqiqəti, yalnız həqiqəti (!) çatdırmaqdır. Olduğu kimi, mənim dərk etdiyim qədər..." fikri onun tarixi hadisələrdə hər şeyi olduğu kimi, səmimi və faktlara əsaslanaraq yanaşmasının təzahürüdür. Müəllif əsərin baş leytmotivini "Biz o yerlərə qayıdacağıq" kimi göstərməklə, bu günün çox da uzaqda olmadığını duyur və hisslərinin onu yanıltmadığına inanaraq bir daha oxucunun rəğbətini qazanır.

Torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən tarixi Zəfərdən sonra bu tarixi dramın mövzusu, orada qoyulan məsələlər xüsusilə aktual səslənir. İrəvan teatrı 2022-ci ildə əsərə yenidən qayıdıb. Xalq artisti Firudin Məhərrəmovun yeni quruluşunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan tamaşa aprelin 19-da, Akademik Rus Dram Teatrının səhnəsində nümayiş olundu.

Əsər tarix boyu dədə-baba yurdlarında yaşamış azərbaycanlıların, ermənilər tərəfindən hər sahədə sıxışdırılmasından, şərlənməsindən, çəkdikləri əziyyətlər və apardıqları cəsarətli mübarizəsindən bəhs edir. Müəllif əsər vasitəsilə Qərbi azərbaycanlıların etnik təmizlənmə siyasətinin qurbanları olduğunu, o zaman üçün mümkünsüz olan bu çətin yolda ulu öndər Heydər Əliyevin şəxsində əzmkarlıq mücəssəməsi yaradır, dahi şəxsiyyətin erməni millətçilərinə qarşı barışmaz mövqeyini göz önünə gətirir. Səhnəni bəzəyən qədim İrəvan torpaqlarının xəritəsi fonunda, hadisələrin cərəyan etdiyi illərin (1968-ci ildən günümüzə qədər) nə qədər çətin və gərgin olduğu tamaşaçıların diqqətini cəlb edir.

Tamaşa müəllifin obrazını yaradan gənc bir azərbaycanlının İrəvan Dövlət Azərbaycan Dram Teatrına direktor vəzifəsinə təyin olunması ilə başlayır. Onunla ilk həmsöhbət olan Ermənistan KP MK-nın katibi Robert Xaçaturyan adlı millətçi erməni dilini bilib-bilmədiyini soruşur, ona "Unutma, sənin fəaliyyətinə nəzarət olacaq" deyə xəbərdarlıq edir. Lakin nə bu cür "xəbərdarlıqlar", nə də onun yolunda yaranan süni maneələr gənc direktoru yolundan döndərə bilmir, əksinə, daha əzmlə işləməyə ruhlandırır. Dramaturqun bu səhnədə "incə ştrix"lərlə Xaçaturyanın katibə qıza dediyi "Asmik can, türkün qəlbini elə ələ alırsan ki, nəzarətimizdən çıxmasın" cümləsi hər zaman aktuallığını qoruyur.

İlk səhnəni Ermənistan KP MK-nın birinci katibi Anton Koçinyanın narahatlığı və Heydər Əliyevlə telefon danışığı əvəz edir. Özünü təqdim edən Koçinyana Heydər Əliyev "Bizim ellər yerindəmi" sualını verməklə onun "kürkünə birə salır". Koçinyan Əliyevi Ermənistana, Dilicana dəvət etsə də, o, bununla razılaşmır, Dilican qədim Azərbaycan torpağıdır, deyir və həmkarına Qazax sərhədində görüşməyi təklif edərək Səməd Vurğunun "Dilican dərəsi" şeirindən misralar deyir:

*Yenə gördüm səni,*
*Dilcan dərəsi,*
*Yadıma çox köhnə*
*zamanlar gəlir.*
*Ömür dedikləri*
*bir karvan yolu,*
*Nə canlar gedərək,*
*nə canlar gəlir...*

Dramaturq Ermənistanın birinci katibinin dili ilə "köhnə birinci katiblə razılaşmalarımız var, ürəyimə damıb ki, çox qəliz adamdır" ifadəsini işlətməklə bir daha ulu öndərin bədxahlara qarşı qətiyyətli, iradəli və sərt mövqeyini açıqlayır.

Səhnə arxasından dahi Üzeyir Hacıbəylinin "Arşın mal alan" operettasından Azərbaycan teatrı aktyorlarının ifasında bir parça canlanır. Bu zaman kollegiya iclası çağıran Ermənistan mədəniyyət naziri əsəbi şəkildə erməni teatr direktorlarını acılayır, onları dövlət planını yerinə yetirməyərək, uğurlu qastrol səfərləri etmədikləri üçün günahlandırır. Direktorları Azərbaycan teatrına baxmağa, onlardan öyrənməyə dəvət edir. İclasda İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru teatrlarının maddi bazasının zəif və binalarının olmamasını nazirin diqqətinə çatdırır. Lakin nazir səslənən telefon zənginə cavab verərək direktorun xahişini cavabsız qoyur. Gələn zəngdə isə yenidən "Arşın mal alan"a bilet sifariş olunurdu.






Tamaşada ikinci əsas surət olan gənc direktor yenidən əsassız olaraq şəhər partiya komitəsinə çağırılır. Birinci katib onun yazdıqlarını oxuyub "cəfəngiyat" adlandırır və Azərbaycan şairlərinin mövqeyinin güclənməsinin səbəbini doğru olaraq Heydər Əliyevin hakimiyyətə gəlişində axtarır. Ədibin şeirlərində böyük sərkərdə Babəkin adı çəkilməsi onu hiddətləndirir. "Babək 50 min erməni öldürüb" deyərək üzr istəməsini tələb edir. Ədib "ermənilər min ildir qırılır, bitmir..." deyərək səhnəni alqışlarla tərk edir.

Qazax sərhədi. Heydər Əliyev və Anton Koçinyanın görüş səhnəsi. Koçinyan vəd olunmuş torpaqların tezliklə Ermənistana verilməsini xahiş edir. Ulu öndər "Bunun nə hüquqi, nə də məntiqi əsası var" deyərək Dilicanın da qədim Azərbaycan torpağı olduğunu qeyd edir. Heydər Əliyev Siyasi Büronun qərarını əsas tutan katibi daha kəskin ifadələrlə susmağa məcbur edir. "Anton, millətçiliyin, şovinizmin kökünü kəsməlisən! Ancaq unutma ki, Azərbaycan öz torpaqlarından bir qarış da heç kəsə verməyəcək!".

Tamaşanın ikinci hissəsində baş verən hadisələr öz kəskinliyini qoruyaraq davam edir. Erməni mayor Şaxmazasyan hüquq-mühafizə orqanlarında çalışan baş leytenant Lətif Nəsibov adlı gənc bir azərbaycanlını ləkələyərək onu rüşvətxorluqda günahlandırır. Şaxnazaryan Əliqulu adlı bir azərbaycanlının anasına hədə-qorxu gələrək, onu Lətif Səfərova rüşvət verdiyini yazmağı tələb edir. Lakin ana bunu etməyəcəyini qətiyyətlə bildirir. Şöbədə baş verən hadisələrdə yenə erməni xisləti, yenə erməni böhtanı məğlub olur.

SSRİ tarixində dərin izlər buraxmış əsas siyasi fiqurlardan olan Sov. İKP MK katibi Mixail Suslov ilə Anton Koçinyanın və Heydər Əliyevin görüş səhnəsi aktyorlar tərəfindən tamaşaçıya daha təsirli çalarlarla təqdim olunur. Suslov Koçinyanın Qarabağ iddiasına "məgər Qarabağ Azərbaycan torpaqları deyil?" cavabını verərək onu otağından qovur. Bütün bunların əksi olaraq böyük rəğbətlə Heydər Əliyevi qarşılayaraq onun işgüzarlığına yüksək qiymət verir. Heydər Əliyev gəlişinin səbəbini sovet hakimiyyətinin qurulmasının 50 illiyi münasibətilə hər iki xalqın iştirakı ilə Xankəndidə tədbir keçirilməsini təklif edərək, Suslovu da həmin tədbirə dəvət edir. Aralarında keçən söhbət səmimi sonluqla bitir.

Səhnədə erməni teatrının direktorunun otağında çaxnaşma canlanır. Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunduğunu eşidən erməni şovinistləri etirazlarını "ənənəvi" üsullardan istifadə etməklə bildirirlər. Onlar bu "ağır xəbər"in qisası kimi "Daşnaksutyun" partiyasının Heydər Əliyevi aradan götürməsini və Moskvada iğtişaşlar planlayırlar. Yalan və böhtanlarla dolu məktubları təkcə Yerevandan deyil, Bakıdan da Kremlə yollayırlar. Siyasi Büronun üzvü Yeqor Liqaçovun qəbuluna çağırılan ulu öndər qətiyyətlə dediklərindən dönmür, bütün söhbətlərin Qarabağ ərazisinin qəsb etmək məqsədilə aparıldığını qeyd edərək, ermənilərin Qarabağa İran və Türkiyə ərazilərindən köçürüldüyünü deyir. Əlində tutduğu Qarabağ tarixi ilə bağlı kitabın müəllifinin də rus tarixçisi olduğunu vurğulayır.

Artıq Ermənistanın hər yerində iğtişaşlar, kütləvi etirazlar səngimək bilmir. Minlərlə azərbaycanlı ailələr öz qədim torpaqlarından qovulur, vəhşicəsinə evləri yandırılır, özləri qətlə yetirilirdilər. Komendant saatı tətbiq edilsə də, bu qaniçən varlıqların ruhunda olan şeytani xislət susmurdu. Səhnədə həmin mitinqlərin Bakıda da eyni ahənglə olduğu canlanır. Bunu Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi Kamran Bağırov, şöbə müdiri, nazirlər və başqa məsul işçilər də müşahidə edirlər. Xankəndidə dünyaya göz açan ananın fəryadını böyük ustalıqla oxucusuna çatdıran dramaturq mətnini məharətlə tamaşaçıya təqdim edən aktrisanın ifasında görmək çox təsirli səhnədir. Kamran Bağırovun qəbulunda olan ana ona "mən 50 ildir tarix müəllimiyəm, bura Pənahəli xanın yurdudur", deyib sonda "Hardasan, ay Heydər Əliyev, hardasan?" deyərək səhnəni tamaşaçıların alqışları altında tərk edir.

Dramaturqun erməni yazıçısı ilə görüşündə həmkarı hadisələrin daha da pis olacağını və bundan da heç kəsə xeyir gəlməyəcəyini vurğulayır. Ədibin hadisələri dərin narahatlıqla izləməsi bütün tamaşa boyu diqqəti cəlb edir:

*Düşməninə aman verən,*
*Burdan min-min atlı keçdi...*
*Bir tərəfdə qanlı qışı,*
*bir tərəfdə güllü yazı...*
*Bir əlində misri qılınc,*
*Bir əlində sazı keçdi...*

Səhnədə fonoqram səsi eşidilir. Heydər Əliyevin Kamran Bağırova məsləhətləri və Qarabağ məsələsini diqqətdə saxlamaq barədə tövsiyəsi ilə birlikdə əzəmətli səsi eşidilir: "Azərbaycan xalqı heç vaxt yad torpaqlara göz dikməmişdir, ancaq tarix boyu torpaqlarımızın böyük bir hissəsi təcavüzkarlar tərəfindən işğal olunmuşdur. Xalqımız işğal olunmuş torpaqlarımızı özünə qaytaracaq, ərazi bütövlüyünü mütləq bərpa edəcək...".

Tamaşanın sonluğunu daha möhtəşəm edən müzəffər Ali Baş Komandanın tarixi səs yazısı olur. Zəfər müjdəsini xalqına çatdıran Prezident İlham Əliyevin sevincli səsi səhnəni öz ağuşuna alır: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Gözün aydın olsun, Azərbaycan! Əziz Şuşa, sən azadsan! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Əsər boyu erməni şovinistlərinin bütün pis niyyətlərini yüksək təmkini ilə, səbirlə dəf edən Heydər Əliyev şəxsiyyəti həmişə onların qarşısında böyük sipər idi. Bir çox məqamlarda məhz bu dahi şəxsiyyətin onların ürəyində kök saldığı qorxu toxumu düşmənin məkrli planlarını alt-üst edirdi. Ulu öndər obrazını canlandıran Əməkdar mədəniyyət işçisi İftixar Piriyev bunun necə məsuliyyətli bir vəzifə olduğunu, bu baxımdan obrazın bütün incəliklərinə (səs oxşarlığı, duruşu, hərəkətləri, addımları, səlis danışığı, gülüşü, baxışı) dərindən yiyələndiyini məharətlə təqdim edir.

Ümumilikdə tamaşada rol alan aktyorların oyunu, tamaşanın hər bir epizodu onların dramaturqa və sənətlərinə olan sevgisinin təcəssümüdür. Əsas rolları canlandıran Natiq Həziyev, Nazir Rüstəmov, Məzahir Süleymanov, Əmrulla Nurullayev, Bəhruz Hikmətoğlu, Səmayə Nəbiyeva, eləcə də ədəbi hissə müdirindən texniki heyətədək hər kəsə təşəkkür edərək yeni tamaşalar görmək arzusu ilə "var olun", deyirəm.

Son olaraq C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaradıcı ömrünün 140 illiyi münasibətilə kollektivi təbrik edir, yeni nailiyyətlər arzulayıram.

**Əsmər Hüseynova**
**Nizami adına Ədəbiyyat İnstitutunun elmi işçisi**

## Xatirə təqvimi — 28-31 may

### Azərbaycan

**28 may 1927** – Xalq artisti, tanınmış kamança ifaçısı Habil Mustafa oğlu Əliyev (1927 – 8.9.2015) Ağdaş rayonunun Üçqovaq kəndində doğulub. Uzun illər Azərbaycan Dövlət Filarmoniyasının solisti olub. "Qanun naminə" filmində çəkilib, "Dəli Kür", "Sarı gəlin" filmlərində musiqiləri ifa edib.

**28 may 1936** – Əməkdar artist Aqşin Məmmədəli oğlu Vəlixanov (1936 – 21.7.1998) Bakıda anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Kinoda, televiziya tamaşalarında çəkilib.

**28 may 2021** – Əməkdar artist, müğənni Zöhrə Abdulla qızı Abdullayeva (16.12.1952 – 2021) vəfat edib.

**29 may 1939** – Əməkdar mədəniyyət işçisi, kinooperator Həmzə Əhmədoğlu (1939-2008) Bakıda doğulub. "Azərbaycanfilm" Kinostudiyasında 40-dan çox filmin çəkilişində iştirak edib.

**29 may 1946** – Əməkdar incəsənət xadimi, aktyor, rəssam Elçin Mehdi oğlu Məmmədov (1946 – 18.2.2001) anadan olub. "Yeddi oğul istərəm", "Dədə Qorqud", "Dantenin yubileyi" və s. filmlərdə çəkilib. Ölkəmizdə, eləcə də Rusiya teatrlarında tamaşalara səhnə tərtibatı verib.

**30 may 1862** – Böyük satirik şair, maarifçi və mütəfəkkir Mirzə Ələkbər Sabir (1862 – 12.7.1911) Şamaxıda doğulub. "Molla Nəsrəddin" jurnalında fəaliyyəti şairin yaradıcılığının ən yetkin, məhsuldar dövrüdür. Ölümündən sonra (1912) şeirləri "Hophopnamə" adlı topluda nəşr olunub.

**30 may 1930** – Şair, publisist, Əməkdar mədəniyyət işçisi Fikrət Abbas oğlu Sadıq (1930 – 16.11.2016) Şamaxı şəhərində anadan olub. Uşaqlar üçün əsərlərin müəllifidir. Kitabları: "İşığın yaşı", "Ağ cığır", "Gözlədiyim ömür" və s.

**30 may 1948** – Xalq rəssamı Tahir Rəşid oğlu Tahirov (1948 – 12.9.2019) Bakıda anadan olub. Akademik Opera və Balet Teatrında quruluşçu rəssam işləyib, filmlərdə ("Cavad xan", "Sübhün səfiri" və s.) geyim rəssamı olub.

**30 may 1967** – Tanınmış aktyor, rejissor, Əməkdar incəsənət xadimi İsmayıl Mahmud oğlu Əfəndiyev (10.8.1910 – 1967) vəfat edib. "Arşın mal alan" (1945), "O olmasın, bu olsun", "Qızmar günəş altında" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**30 may 1974** – SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan Dövlət Akademik Dram Teatrı "sovet teatr sənətinin inkişafında böyük xidmətlərinə görə" "Lenin" ordeni ilə təltif edilib.

**31 may 1922** – Xalq artisti, məşhur xanəndə Sara Bəbiş qızı Qədimova (1922 – 12.5.2005) Bakıda anadan olub. Azərbaycan Dövlət Filarmoniyasının, Opera və Balet Teatrının solisti olub, Azərbaycan musiqisinin xaricdə təbliğinə böyük töhfə verib.

**31 may 1929** – Bəstəkar, Xalq artisti Oqtay Qədir oğlu Zülfüqarov (1929 – 31.8.2016) anadan olub. Uşaqlar üçün "Əlibaba və qırx quldur" baleti, "Azərbaycan gəncləri" odası, digər musiqi əsərlərinin, 300-dən çox mahnının müəllifidir. Tamaşalara musiqi yazıb.

**31 may 1963** – Əməkdar artist, tanınmış xanəndə Zülfi (Zülfüqar) Səməd oğlu Adıgözəlov (1898-1963) vəfat edib.

**31 may 1974** – Bakıda Azərbaycan peşəkar milli teatrının 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasim keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə çıxış edib.

### Dünya

**28 may 1779** – İngilis şairi, mütəfəkkir Tomas Mur (Thomas Moore; 1779-1852) anadan olub.

**28 may 1934** – Gürcüstanın Xalq artisti Liya Eliava (1934-1998) anadan olub. Azərbaycanda "Dəli Kür" (Şahnigar), "Tütək səsi" (Sayalı) filmlərinə çəkilib.

**29 may 1874** – İngilis yazıçısı, filosof, jurnalist Gilbert Çesterton (Gilbert Keith Chesterton; 1874-1936) anadan olub. Əsərləri: "Əbədi insan", "Şar və xaç", "Uçan meyxana" və s.

**29 may 1953** – Tanınmış aktyor, Rusiyanın Xalq artisti Aleksandr Abdulov (1953-3.1.2008) anadan olub. Filmləri: "Sevdiklərinizdən ayrılmayın", "Ən məftunedici və cazibədar", "Məhbəs romansı" və s.

**30 may 1778** – Fransız yazıçısı, şair, mütəfəkkir və tarixçi Volter (əsl adı Fransua-Mari Arue; 21.11.1694 – 1778) vəfat edib.

**30 may 1937** – Rusiyanın Xalq artisti Aleksandr Demyanenko (1937-1999) anadan olub. Filmləri: "Qafqaz əsiri", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.

**31 may 1809** – Məşhur Avstriya bəstəkarı Frans Yozef Haydn (Franz Joseph Haydn; 31.3.1732-1809) vəfat edib. Simfoniyaların, opera, sonata, oratoriya və s. əsərlərin müəllifidir.

**31 may 1887** – Fransız şairi, Nobel mükafatı laureatı (1960) Sen-Jon Pers (Saint-John Perse; 1887-1975) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Qarabağda İbrahimxəlil xan dövrünün numizmatik faktları – pənahabadilər

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika fondunda Qarabağ xanlığının qurucusu Pənahəli xan Cavanşirin (1748 - 1763) varisi İbrahimxəlil xanın (1763-1806) dövrünə aid unikal sikkələr – pənahabadilər qorunur.




Muzeydən verilən məlumata görə, aşkar olunmuş numizmatik faktlara əsasən, ilkin pənahabadilər hicri 1209 – miladi təqvimlə 1794-1795-ci illərdə zərb edilib. Pənahabadda (Şuşada) ilk gümüş sikkələr anonim (adsız) zərb edilirdi.

"Pənahabadi" nominalına malik gümüş və mis sikkələrin məhz belə adlandırılması bir sıra amillərlə əlaqədar idi. Bir sıra başlıca şəhərlər, məntəqələr və coğrafi məkanların şərəfli epitetlərlə adlandırılması İslam ənənəsinə xas olan cəhətlərdən idi.

XVIII – XIX əsrlərdə, digər müsəlman dövlətlərində olduğu kimi, Qarabağ xanlığı sikkələrinə də onların zərb edildiyi məkana müvafiq zərbxana adı həkk edilirdi. Belə zərb vasitəsilə İbrahimxəlil xan hakimiyyətin ona atasından miras qaldığına işarə edirdi. Hicri 1209-1212 və 1214 – miladi 1794-1798, 1799-1800-cü illərdə pənahabadilər (1,48 – 1,89 q) və yarımpənahabadilər (0,96 – 0,97 q) zərb edilib.

XVIII əsrin sonunda Azərbaycan və İranın pul-sikkə sisteminin başlıca gümüş sikkə vahidi olan gümüş abbasının çəkisi 1- 2 qrama enmişdi. Bu dövrün pul təsərrüfatında Səfəvilərdən miras qalan daha bir sikkə – "şahi" (1/4; 1/6 abbası) və digər nominallı sikkələr dövriyyədə idi.

Qeyd edək ki, İbrahimxəlil xan dövründə Qarabağda zərb edilən pənahabadilərə Rusiya və İran sikkə standartlarının tətbiq edilməsi təəccüb yaratmamalıdır. Xan dəfələrlə rusiyalı təmsilçilərlə danışıqlar aparmış, fars təsirini anlayaraq öz sikkələrinin həm də İranda dövriyyəsini təmin etməyə çalışmışdı. Rus işğalından sonra, 1805-1817-ci illərin bəzi pənahabadilərinin anonim zərb edilməsi isə Qarabağ xanlığının müstəqillik cəhdlərinin göstəricisi sayıla bilər.

Numizmatik tədqiqatlara əsasən, Qarabağ xanlığında beş tipdə pənahabadilər, həmçinin onların yarımtipləri zərb edilib.

Karvan yollarının qovşağında yerləşən Şuşa bir sıra şəhərlərlə ticarətdə iştirak edirdi. Bura Rusiya, İran, Türkiyə, İraq və Hindistandan tacirlər gəlirdilər.

İbrahimxəlil xan dövründə Qarabağda gümüş və mis sikkələr zərb edilib. Anonim mis pənahabadilərə heyvan təsvirləri də həkk olunub. Xanlıqda qızıl sikkələrin zərbini təsdiq edən fakt aşkarlanmayıb.

# UNESCO-da muğam konserti

Azərbaycanın UNESCO üzrə Milli Komissiyası və UNESCO yanında Daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə 28 May – Müstəqillik Günü, ölkəmizin quruma üzv olmasının 30 illiyi və "Şuşa İli" çərçivəsində Parisdə "Qarabağ" muğam qrupunun konserti keçirilib.

Mayın 24-də UNESCO-nun mənzil-qərargahında keçirilmiş tədbirdə təşkilata üzv dövlətlərin daimi nümayəndələri, yerli ictimaiyyət və diaspor nümayəndələri iştirak ediblər.

UNESCO yanında daimi nümayəndə Elman Abdullayev çıxış edərək, 104 il əvvəl – 1918-ci il mayın 28-də müsəlman dünyasında ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığını diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra 1992-ci ildə UNESCO-ya üzv olub. Bu il Azərbaycanın UNESCO-ya üzv olmasının 30 ili tamam olur. Bu illər ərzində Azərbaycanda, eləcə də UNESCO-nun mənzil-qərargahında birgə tədbirlər, ortaq layihələr həyata keçirilib.



UNESCO Baş direktorunun müavini Firmin Eduard Matoko ölkəmizi yaxşı tanıdığını bildirərək, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi, UNESCO ilə əməkdaşlığı və həyata keçirilmiş layihələrdən söz açıb.

UNESCO-nun İcraiyyə Şurasının sədri Tamara Rastovaç-Siamaşvili Azərbaycanın qurumun II Seçki qrupuna sədrliyi çərçivəsində onun namizədliyinin irəli sürülməsinə, ona göstərilən etimada görə təşəkkürünü bildirib.

Çıxışlardan sonra "Qarabağ" muğam qrupunun konserti olub. Qrupun rəhbəri – Xalq artisti Mənsum İbrahimov və gənc xanəndə Gülzar Fərəcova, Xalq artisti Elçin Həşimov (tar), Əməkdar artist Elnur Əhmədov (kamança) və Kamran Kərimovun (nağara) müşayiətində Azərbaycan xalq mahnıları, təsnif və muğamlardan parçalar ifa ediblər. Gənc musiqiçi Sona Əzizova "Şuşam mənim" və "O günlərdən biri" mahnılarını oxuyub.

Xatırladaq ki, bundan öncə "Qarabağ" muğam qrupu "Şuşa İli" və Azərbaycanın UNESCO-ya üzvlüyünün 30 illiyi çərçivəsində Strasburqda konsert vermişdi.

# I Bakı Beynəlxalq Piano Festivalı başa çatır

*əvvəli səh. 1-də*

Həmin gün Helge Lienin triosunun təqdim etdiyi caz konserti tamaşaçıların könlünü oxşadı. Bu, Norveç triosunun Bakıda ilk konserti deyildi. Qrup 2018-ci ildə Bakı Caz Festivalında da səhnəyə çıxıb. Öz unikal üslubu və Skandinaviya ruhu ilə eyniadlı caz triosunun yaradıcısı, görkəmli pianoçu Helge Lien Bakı Beynəlxalq Piano Festivalının səhnəsində öz kollektivi ilə Johannes Eik (bas) və Knut Aalefjar (zərb alətləri) birlikdə kamera musiqisinin inanılmaz meditativ atmosferini yarada bildi. Müəllifin kompozisiyalarında Bill Evansın klassik lirik ənənələri ilə avanqard improvizələri və şimal xalqlarının melanxoliyasının etnik motiv elementlərinin tarazlığını müşahidə etmək olardı...

Mayın 25-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Dövlət Kamera Orkestrinin müşayiəti ilə (dirijor Valid Ağayev) E.Qriqin "Fortepiano və orkestr üçün konsert"ini Səidə Zülfüqarova ifa etdi.



S.Zülfüqarova Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında piano müəllimi və konsertmeyster ixtisasına yiyələnib. Bir çox yerli müsabiqələrin qalibi olan ifaçı Parisin IV Sorbon Universitetində musiqişünaslıq üzrə oxuyub, həmçinin magistr dərəcəsi alıb.

Konsertdə S.Raxmaninovun "Fortepiano üçün 2 nömrəli konsert"ini isə musiqiseverlər beynəlxalq müsabiqələr laureatı, Prezident mükafatçısı Vurğun Vəkilovun ifasında dinlədilər. Bu əsər Vurğunun ifasında ikinci dəfə səslənirdi. Mütəxəssislər pianoçunun musiqi duyumunu, ayrı-ayrı səslərə, səs birləşmələrinə vurğunluğunu yüksək qiymətləndirir. Konsert boyu hər bir akkordun gözəlliyini çatdırmağa can atan ifaçı tanış mətnə yeni rəng qatırdı. Musiqi axşamında hər iki ifaçı tamaşaçılara valehedici emosiyalar bəxş edə bildilər.

Çexiyadan olan Marek Novotnı kvartetinin mayın 25-də "Landmark"da çıxışı da maraqla qarşılandı. Kvartet bu yaxınlarda Çində təşkil edilən "Çan-Şa" festivalının Qran-pri mükafatını qazanıb. Musiqi nəzəriyyəsi üzrə fəlsəfə doktoru, pianoçu M.Novotnı həm də bəstəkar və aranjimançıdır. O, ABŞ-da "Gremmi" mükafatı laureatı Cefri Holmsun rəhbərliyində caz bəstəkarlığı üzrə magistr dərəcəsi alıb. Pianoçu bir çox məşhur musiqiçi və qruplarla əməkdaşlıq edib, Böyük Britaniya, Almaniya, Norveç, Danimarka, ABŞ və Çində konsertlər verib.

Müxtəlif ölkələrdən musiqiçi və qrupların iştirak etdiyi I Bakı Beynəlxalq Piano Festivalı mayın 27-də başa çatacaq. Festivalın bədii rəhbəri Şahin Növrəslidir.

**Lalə Azəri**

# Ölkəmizin işgüzar turizm imkanları İstanbulda tanıdılır

Mayın 25-də İstanbulda açılan "ACE of MİCE" beynəlxalq turizm sərgisində Azərbaycanın işgüzar turizm imkanları da təqdim olunur. Sərgidə ölkəmizi Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzi, turizm agentlikləri, hotellər, Bakı Konqres Mərkəzi və AZAL daxil olmaqla 13 təşkilat təmsil edir.

Sərgi çərçivəsində Azərbaycanda işgüzar tədbirlər təşkil etməkdə maraqlı olan, eləcə də işgüzar turizm üzrə ixtisaslaşmış şirkət və qurumlarla ikitərəfli görüşlər keçirilir, ölkəmizin bu sahədə potensialı tanıdılır. Beynəlxalq tədbirlərin və biznes görüşlərin keçirilməsi üçün geniş imkanlara malik Bakı Konqres Mərkəzi, Heydər Əliyev Mərkəzi, Bakı Expo Mərkəzi, həmçinin regionlarda işgüzar tədbirlər üçün müvafiq infrastruktur haqqında məlumatlar verilir.

Türkiyə Səyahət Agentlikləri Birliyinin (TURSAB) İdarə heyətinin sədri Firuz B.Bağlıkaya ölkəmizin stendini ziyarət edib, iştirakçılara uğurlar arzulayıb.




İşgüzar turizm imkanlarının tanıdılmasında əsas məqsəd beynəlxalq konqres, konfrans, forum və biznes görüşləri kimi tədbirləri ölkəmizə cəlb etmək, işgüzar məqsədlərlə səfər edənlərin sayının artırılmasına nail olmaqdır. 9-cu dəfə keçirilən "ACE of MİCE" dünyanın üçüncü ən böyük konqres, toplantı və tədbir sərgisi hesab olunur.

İstanbul Konqres Mərkəzində "Türk Hava Yolları" tərəfindən təşkil olunan sərgi mayın 27-də başa çatacaq.

# Rusiya mülki hava məkanını Türkiyə təyyarələrinə verir

Ukraynaya qarşı apardığı müharibə səbəbindən ağır sanksiyalarla üzləşən Rusiya artıq dördüncü aydır dünyanın əksər ölkələrinə bağlı qalan mülki hava məkanını Türkiyə təyyarələrinə verir.



"Türk Hava Yolları" hazırda Rusiyaya intensiv uçuşlar həyata keçirən az sayda aviaşirkətlərdən biridir. Müxtəlif ölkələrə uçmaq istəyən rusiyalıların böyük qismi məhz Türkiyə istiqamətindən və bu ölkənin təyyarələrindən istifadə edirlər. Eyni zamanda, Rusiya xaricə uçacaq hər hansı təyyarəsinin bu və digər hava limanından geri qayıtmamaq (üzərinə həbs qoyula bilər) təhlükəsini ciddiyə alaraq, ümumiyyətlə, arxayın olmadığı ölkələrə uçuş həyata keçirməkdən çəkinir.

Üstəlik, Rusiya tərəfi əksər istiqamətlərdə uçuşlardan məhrum olan yerli aviaşirkətlərin faktiki zərərlə işlədiyini nəzərə alaraq Türkiyə ilə qarşılıqlı reyslərin də böyük hissəsinin "Türk Hava Yolları" və bu ölkənin digər azbüdcəli aviaşirkətləri tərəfindən yerinə yetirməsinə razılaşıb. Məlumatlara görə, iyun ayında Rusiyadan bu ölkəyə və əks istiqamətdə nəzərdə tutulan 600-dən çox reysin təxminən üçdə ikisi Türkiyə təyyarələrinin payına düşəcək. Yay turizm mövsümünün başlaması ilə Rusiyadan Türkiyəyə səfərlərin daha da artacağı gözlənilir.

Xatırladaq ki, fevralın 24-də Ukraynada hərbi əməliyyatlar başlayandan bu yana "Rosaviasiya" ölkənin cənub və mərkəzi hissəsində yerləşən 11 aeroportda uçuşları dayandırıb. Bu səbəbdən Rusiya daxilində uçuşlar da yerli aviaşirkətlər üçün rentabelliyini itirməkdədir.

**V.Kamal**

# Norveçlə diplomatik əlaqələrin 30 illiyi

## Osloda caz konserti ilə qeyd olunub

Azərbaycanla Norveç arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə Oslonun "Ədəbiyyat evi" mərkəzində caz konserti keçirilib.

Tədbirdə bu ölkədə səfərdə olan Azərbaycanın xarici işlər nazirinin müavini Fariz Rzayev çıxış edib. O, iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıqdan, neft və qaz sahəsində birgə layihələrdən, əlaqələrin daha da inkişaf etdirilməsi üçün mövcud imkanlardan söz açıb. Qeyd olunub ki, digər sahələrlə yanaşı, mədəniyyət sahəsində də əlaqələr Norveç-Azərbaycan münasibətlərinin gələcəkdə daha da inkişaf etdirilməsi üçün möhkəm zəmin rolunu oynaya bilər.




Norveç Xarici İşlər Nazirliyinin Şərqi Avropa və Mərkəzi Asiya üzrə idarəsinin direktoru Lars Ragnar Aalerud Hansen tədbir iştirakçılarını Azərbaycan dilində salamlayaraq, ölkəmizlə bağlı xatirələrini bölüşüb. O, Azərbaycanın zəngin mədəniyyət, musiqi irsinin olduğunu qeyd edərək ölkələrimiz arasında uğurlu əməkdaşlıqdan məmnunluğunu ifadə edib, mövcud əlaqələrin dərinləşdirilməsi üçün imkanların olduğunu diqqətə çatdırıb.

Tədbirin bədii hissəsində Əməkdar artist İsfar Sarabskinin caz triosu çıxış edib. Proqramda İ.Sarabskinin bəstələri, tanınmış Azərbaycan və dünya bəstəkarlarının kompozisiyaları səslənib.

Skandinaviya Azərbaycanlıları Norveç üzrə Koordinasiya Şurası tərəfindən təşkil olunmuş tədbirdə Azərbaycanın İsveç və Norveçdəki səfiri Zaur Əhmədov, Norveçin hökumət və ictimaiyyət nümayəndələri də iştirak ediblər.

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 799 il əvvəl...

**31 may 1223-cü ildə** monqol-tatarların rus knyazlıqları üzərində hökmranlığı başlayıb. Çingiz xanın ən yaxşı sərkərdələri olan Cebe və Subedeyin qoşunları Kiyev, Çerniqov (indiki Ukrayna), Smolensk knyazlıqlarına hücuma keçiblər. Kalka çayı (indiki Donetsk vilayəti) üzərində baş verən ilk döyüşdə rus və qıpçaqların birgə qüvvələri ağır məğlubiyyətə uğrayıb. Monqol-tatarların rus knyazlıqları üzərində hökmranlığı 1480-ci ilədək davam etdi.

### 569 il əvvəl...



**29 may 1453-cü ildə** Sultan Mehmetin (Fateh) başçılıq etdiyi Osmanlı ordusu Bizans (Şərqi Roma) imperiyasının paytaxtı Konstantinopolu fəth edib. 330-cu ildə Bizans imperatoru Konstantin tərəfindən əsası qoyulan şəhər strateji əhəmiyyətinə görə daima böyük dövlətlərin mübarizə obyekti olmuşdu. Şəhərin türklər tərəfindən fəthi onun əldən-ələ keçməsinə son qoydu. İstanbul adlandırılan şəhər Osmanlı dövlətinin paytaxtı elan edildi.

### 467 il əvvəl...

**29 may 1555-ci ildə** Səfəvi dövləti ilə Osmanlı imperatorluğu arasında Amasya sülh müqaviləsi imzalanıb. Səfəvi-Osmanlı müharibəsinin (1514-1555) birinci mərhələsi başa çatıb. Qərbi Gürcüstan – İmeretiya, Meqreliya və Quriya çarlıqları Osmanlının, Gürcüstanın şərq vilayətləri və Qərbi Azərbaycan (indiki Ermənistan), eləcə də şimallı-cənublu bütün Azərbaycan torpaqları Səfəvi dövlətinin tərkibinə keçib.

### 208 il əvvəl...



**30 may 1814-cü ildə** Napoleonun imperiyası süqut edib. Fransa ilə müttəfiqlər koalisiyası (Rusiya, Prussiya, Britaniya, Avstriya) arasında Paris sülh müqaviləsi imzalanıb. Fransa məğlub olsa da, müqavilə onun üçün qismən məqbul və 1792-ci ilədək mövcud olmuş sərhədlərini və müstəmləkələrini əlində saxlayırdı. Fransanın taxt-tacı Burbonlara (XVIII Lüdoviq) qaytarıldı, Napoleon (sürgün edilmişdi) tərəfindən ələ keçirilmiş ərazilərin müqəddəratı isə Vyana konqresində (1815) həll olundu.

### 192 il əvvəl...

**28 may 1830-cu ildə** ABŞ-da hinduların köçürülməsi haqqında qanun qəbul olunub. Bu, hinduların xüsusi rezervasiyalarda yerləşdirilməsini nəzərdə tutan ilk qanun idi. Missisipi çayından şərqdə (ABŞ-ın ən münbit torpaqları) yaşayan 100 minədək hindu ölkənin qərbinə – "Hindu ərazisi" adlandırılan yerə köçürüldü. Tarixə "Göz yaşı cığırı" adı ilə düşən köçürülmədə minlərlə hindu həlak olub.

### 149 il əvvəl...

**29 may 1873-cü ildə** çar Rusiyası Xivə xanlığını özünə birləşdirib. Bir qədər əvvəl Buxaranın işğalı hərbi toqquşmalarla müşayiət olunsa da, Xivənin ələ keçirilməsinə yerli əhali faktiki müqavimət göstərmədi.

### 109 il əvvəl...

**30 may 1913-cü ildə** Balkan müharibəsinin (1912-1913) yekunları ilə bağlı Londonda müqavilə bağlanıb. Osmanlı imperiyası Krit adası istisna olmaqla, Balkanlardakı bütün ərazilərindən əl çəkib.

### 104 il əvvəl...

**28 may 1918-ci ildə** Tiflisdə Azərbaycan Milli Şurasının iclasında Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan olunub. Əhməd bəy Ağayevin sədrlik (Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadə Batumda Osmanlı nümayəndələri ilə danışıqlar aparırdı) etdiyi iclasda iştirak edən 26 deputatın səsi ilə "İstiqlal Bəyannaməsi" qəbul edilib. Fətəli xan Xoyskinin başçılığı ilə ilk hökumət təsdiqlənib. Hökumətdə "Müsavat" 3, müsəlman sosialistlər 2, "Hümmət" və "İttihad" hərəyə 1 yer almışdı, 2 nəfər bitərəf nazir (o cümlədən F.Xoyski) vardı. Milli hökumət iyunun 16-dək Tiflisdə fəaliyyət göstərdi, sonra Gəncəyə köçdü.

### 31 il əvvəl...

**30 may 1991-ci ildə** erməni təxribatçılarının Azərbaycana qarşı növbəti terror aktı baş verib. Dağıstanın Xasavyurt stansiyası yaxınlığında Moskva-Bakı sərnişin qatarında törədilən partlayış nəticəsində 11 nəfər həlak olub, 22 nəfər yaralanıb.

### 30 il əvvəl...

**28 may 1992-ci ildə** Sədərəkdə Naxçıvanla Türkiyə arasında nəqliyyat əlaqəsi yaradan körpünün ("Ümid körpüsü") açılışı olub.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiymәti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5072. **Sifariş:** 1508

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641